Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 243 (7970) BAZAR, 28 oktyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# Sözlə əməlin vəhdəti

## Bəşəriyyətin inkişafına xidmət edən qlobal təşəbbüslər

**Müasir dünyamızda nəzərə çarpan ən müsbət meyillərdən biri müxtəlif aktual məsələlərin həlli məqsədilə qlobal əməkdaşlığa marağın getdikcə artmasıdır.**

Artıq hər kəs fərqindədir ki, bütün bəşəriyyəti təhdid edən ayrı-ayrı problemlərin həlli, fərqli mədəniyyətlər mühitində birgəyaşayış normalarının qorunması, bu mühitdə qazanılmış mənəvi nailiyyətlərin daha da inkişafı, cəmiyyətlərin gələcək tərəqqisi üçün geniş imkanların yaradılması təkcə bir ölkənin bacardığı iş deyil. Bundan ötrü dövlətlərin, cəmiyyətlərin bir araya gəlməsinə, tanınmış görkəmli xadimlərin, alimlərin, dünyanın siyasi, elmi və mədəni elitasının nümayəndələri arasında ardıcıl dialoqların aparılmasına ehtiyac var.

### Tarixi missiya

Belə faydalı təşəbbüslərin reallaşmasını öz üzərinə götürərək müxtəlif beynəlxalq tədbirlərə, eləcə də humanitar forumlara uğurla evsahibliyi edən Azərbaycan son illər bütün dünyada dialoq məkanı kimi tanınıb. Oktyabrın 25-də Heydər Əliyev Mərkəzində işə başlayan VI Bakı Beynəlxalq Humanitar Forumu da bu tarixi missiyanın davamıdır.

2010-cu ildən təşkil olunan forumun təşəbbüsçüləri Azərbaycan və Rusiya prezidentləridir. İndiyə qədər keçirilmiş ənənəvi forumların hər biri dövrümüzün ayrı-ayrı aktual problemlərinə həsr edilib. Aparılan diskussiyalara, əldə edilən nəticələrə əsaslanaraq bəşəriyyətə zəruri çağırışlar ünvanlanıb. Yerinə yetirilməsi vacib vəzifələr aktuallaşdırılıb və hər bir forumun nəticəsi də kifayət qədər faydalı olub. Dünyanı vahid məkan və bütün bəşəriyyəti bir cəmiyyət kimi görmək istəyinin ifadəsi olan bu cür tədbirlər yeni münasibətlər qurmağa, daha mütərəqqi və aktual müzakirələr aparmağa imkan verir. Beləliklə, bəşəriyyətin inkişafına ənənəvi yanaşmalarda müsbət dəyişikliklərin yaranmasına vəsilə olur.

Bakı Beynəlxalq Humanitar Forumunun artıq altıncı dəfə keçirilməsi onu göstərir ki, Azərbaycan bu gün beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox əhəmiyyətli ölkədir. 90-dan çox ölkə və 24 beynəlxalq təşkilatdan 580-dən çox nümayəndənin, o cümlədən elmin fərqli sahələri üzrə Nobel mükafatı laureatlarının, nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin, siyasət, elm, mədəniyyət xadimlərinin qatıldığı VI Bakı Beynəlxalq Humanitar Forumu da 3-cü minillikdə xüsusilə mühüm maraq kəsb edən bir mövzuya həsr edilib: "Yeni dünya və yeni insan formalaşdıraq: kreativlik və insan inkişafı".

Dünyanın və insanın inkişafı məsələsi bütün dövrlərdə aktual olub. Qloballaşan dünyamızda isə mövcud təhsil və maarif sistemlərinin təkmilləşdirilməsi, mədəniyyətin və incəsənətin dəstəklənməsi, informasiya təhlükəsizliyinin təminatı, intellektual mülkiyyətin müdafiəsi və digər bu kimi aktual problemlər fonunda bu məsələ xüsusilə müstəsna əhəmiyyət kəsb edir. Əslində, dünyanın inkişafı da elə insanın inkişafından başlanır. VI Bakı Beynəlxalq Humanitar Forumu gələcək dünyamızı formalaşdırmalı olan kreativ ideyaları və onların həyata keçirilməsi yollarının axtarılmasını diqqətdə saxlayır. Ümimilikdə, forumun məqsədi dünyanın və insanın inkişafının hər kəs üçün ən əlçatan, uyğun yollarını tapıb göstərmək, qlobal çağırışlarla bəşəriyyəti bu doğru səmtə yönəltməkdir.

### "Bakı prosesi" davam edir

Həyata keçirdiyi məqsədyönlü siyasətin, irəli sürdüyü beynəlxalq təşəbbüslərin uğurları ilə təkcə Azərbaycan insanlarının deyil, ümumən bəşəriyyətin rifahına xidmət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumun açılış nitqində humanitar məsələlərin müzakirəsinin əhəmiyyətini bir daha diqqətə çatdırdı. Humanitar əməkdaşlığa xüsusi önəm verən ölkələrdən biri kimi Azərbaycanda bu məqsədlə keçirilmiş mötəbər beynəlxalq tədbirləri, o cümlədən BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu, dünya dinləri liderlərinin Bakıda keçirilmiş zirvə görüşünü, dörd dəfə ölkəmizdə təşkil edilən Mədəniyyətlərarası dialoq forumunu xatırlatdı.

Prezident İlham Əliyevin qeyd etdiyi bu beynəlxalq humanitar əməkdaşlıq formatlarının hər biri bu il 10 illiyi tamamlanan "Bakı prosesi"nin tarixi nailiyyətləridir. Bu il "Bakı Prosesi"nin 10-cu ildönümünün qeyd edilməsilə bağlı dövlət başçısı tərəfindən xüsusi sərəncam imzalanmışdır. 2008-ci ildə mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədilə irəli sürülmüş və tam 10 ildir ki, bu yolla uğurla reallaşdırılan "Bakı Prosesi" kimi nəcib bir təşəbbüsün irəli sürülməsi böyük iftixar doğurur. Azərbaycanın belə bir qlobal hərəkatın təşəbbüskarı kimi çıxış etməsinin əsasında ölkəmizin yüz illərlə formalaşdırdığı mədəni müxtəliflik, tolerantlıq, fərqli mədəniyyətlərə hörmət ənənələri dayanır.

Ardı 5-ci səh.



# Azərbaycan - Şərqin parlayan ulduzu

## Prezident İlham Əliyevin uğurlu Şərq siyasəti ölkəmizin diplomatik nailiyyətlərinin artmasına mühüm töhfə verir

**Ötən 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz möhtəşəm, çoxəsrlik tariximizdə görünməmiş inkişaf yolu keçib. Yüksək vətənpərvərlik, mahir idarəetmə qabiliyyəti, polad iradə, sarsılmaz qətiyyət və uzaqgörənlik, yalnız milli maraqlara söykənən daxili və xarici siyasət bir həqiqəti ortaya qoydu: 15 il öncə müdrik xalqımız yeganə düzgün seçim edib.**

İdarəetmə sisteminin bütün sahələri kimi müstəqil dövlətimizin beynəlxalq münasibətləri də daim Prezidentin diqqət mərkəzindədir. Qüdrətli dövlətlərin mənafelərinin toqquşduğu mühüm geostrateji mövqeyi, zəngin yeraltı və yerüstü sərvətləri ilə diqqəti çəkən Azərbaycanda bütün bu məsələlərin həlli böyük müdriklik, uzaqgörənlik və polad siyasi iradə tələb edir. Dövlətin xarici siyasətinin istiqamətlərini, prinsiplərini, xarakterini müyyənləşdirən Prezident İlham Əliyev ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Onun tərəfindən formalaşdırılan xarici siyasət strategiyası ilk növbədə, respublikamızın milli maraqlarının aydın və dəqiq şəkildə müəyyən edilməsini, bərabərhüquqlu, daxili işlərə qarışmamaq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında qonşu dövlətlər və dünya birliyi ilə mehriban münasibətlərin qurulmasını, uğurlu enerji və nəqliyyat infrastrukturları diplomatiyası vasitəsilə uzun müddətli perspektivdə davamlı inkişafın əldə edilməsini, xarici siyasətimizin manevr imkanlarının və strateji dərinliyinin artırılmasını, ən əsası, Ermənistana qarşı beynəlxalq siyasi təzyiqin gücləndirilməsini və son hədəf olaraq Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının təmin olunmasını özündə ehtiva edir.

Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımlar atan Prezident Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər edir. Şərq müdrikliyini və Qərb praqmatizmini özündə birləşdirən Prezident İlham Əliyevin xarici siyasət konsepsiyası dövlətimizin xarici siyasətdə nəzərdə tutduğu əsas vəzifələrdə öz əksini tapmışdır. Mənafeyi Azərbaycanın dövlətçilik və milli maraqları ilə uyğun gələn, üst-üstə düşən dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaradılır, respublikamızın beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün onların imkanlarından istifadə edilir. Dövlətimiz bütün beynəlxalq və regional qurumlarda, iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. təşkilatlarda fəal iştirak edir, düşünülmüş və xalqımızın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeridir, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunması üçün bütün xarici və daxili amillərdən istifadə edir. Aparılan düzgün xarici siyasət bir çox sahələrdə artıq konkret nəticə vermişdir. Xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin köklü mənafelərinin qorunmasına yönəlmiş əməli iş görülür. İlk növbədə, müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla əlaqələrin prioritetləri müəyyənləşdirildi və həyata keçirildi.

Şərq və Qərb arasındakı strateji mövqeyimizdən yararlanan ölkə Prezidenti öz xarici siyasətində Azərbaycanın Şərqlə Qərb arasında siyasi, iqtisadi, elmi, mədəni və s. sahələrdə körpü rolunu oynamasından maksimum istifadə etməyə çalışır. Prezidentin xarici siyasətində, Şərqə münasibətdə, qonşu ölkələrlə, xüsusilə Türkiyə, İran və s. ölkələrlə münasibətlərdə uzaqgörənlik, müdriklik və mahir davranış həmişə duyulur.

Ardı 3-cü səh.

# Çex Respublikasının Prezidenti Zati-aliləri cənab Miloş Zemana

Hörmətli cənab Prezident,

Çex Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan-Çexiya əlaqələri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 oktyabr 2018-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin strukturu"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 416; 2004, № 6, maddə 440, № 9, maddə 674; 2005, № 6, maddə 491, № 12, maddə 1102; 2006, № 7, maddə 592, № 8, maddə 659; 2007, № 6, maddə 615, № 9, maddə 869, № 10, maddə 947, № 11, maddə 1106; 2008, № 3, maddə 168, № 8, maddə 719; 2009, № 5, maddə 322, № 12, maddə 983; 2010, № 2, maddə 83, № 3, maddə 185; 2011, № 2, maddə 85, № 6, maddə 508, № 9, maddə 791; 2012, № 9, maddə 852; 2013, № 5, maddə 511, № 11, maddə 1320; 2014, № 12, maddə 1573; 2015, № 2, maddə 127, № 6, maddə 697, № 12, maddə 1474; 2016, № 3, maddə 455, № 6, maddə 1070, № 12, maddə 2057; 2017, № 5, maddə 783, № 10, maddə 1796; 2018, № 6, maddə 1204) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin strukturu"nun 2-ci hissəsinin iyirminci abzasında "Şöbəsi" sözü "İdarəsi" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 oktyabr 2018-ci il*



# Zəngilanı yaşadan "Zəngilan"

**29 oktyabr - 1993-cü il... Düz, 25 ildir ki, bu təqvim günü evimiz sanki matəmə batır. Bu tarix ailəmin, nəslimin, el-obamın çırağının söndüyü gündür...**

**Zəngilanın işğal günüdür...**

**Mən o dəhşətli günün bir yaş səkkiz aylıq şahidiyəm...**

Anamın o vahiməli gündə isti şalı ilə belinə sarıyıb buz kimi Arazı o taya, sonra yenidən bu taya keçirdiyi uşağam... O dəhşətli mənzərəni xatırlamasam da, artıq 27 yaşlı bir gənc kimi həmin günü valideynlərimin hansı hisslər keçirdiyini, 25 il Zəngilan həsrəti ilə yaşayıb bu yaxınlarda dünyasını dəyişən 89 yaşlı nənəmin illər ərzində nələr çəkdiyini qəlb ağrısı ilə hiss edirəm...

Və bu gün mən yenə Zəngilandayam...

1 yaş 8 ayımda anamın kürəyində qaçaqaçla çıxdığım o yurda yenidən qayıtmışam. Amma bura rəhmətlik nənəmin gözləri dola-dola, titrək dodaqları ilə içini çəkə-çəkə bəhs etdiyi o Zəngilana bənzəmir. Havası o hava, torpağı həmin torpaq deyil...

Buradan nə buz bulaqlı Şükrataz, nə "Ağ Oyuğun" düzü, nə də Əsgülümün zirvəsi görünür. Bura 25 ildir elindən-obasından didərgin düşmüş məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları "Zəngilan şəhərciyidir"...



## İşğalın 25-ci ildönümünü rayon sakinləri nisgillə yanaşı, ümid və qayıdışa inamla qeyd edirlər

### İşğala məruz qalan sonuncu rayon

Zəngilan rayonu - Azərbaycanın cənub-qərbində şimaldan Qubadlı, şərqdən Cəbrayıl rayonları, cənubdan Araz çayı boyunca İran İslam Respublikası, qərbdən isə Ermənistanın Mehri və Qafan rayonları ilə həmsərhəddir.

Ərazisi 707 kvadratkilometr olan Zəngilan rayonu işğal ediləndə əhalisi 35,6 min nəfər olub. Rayon eyni adlı şəhərdən, 1 qəsəbə və 83 kənddən ibarət idi. Burada 14 tibb müəssisəsi, 11 uşaq bağçası, 62 ümumtəhsil məktəbi, 23 klub, 8 mədəniyyət evi, 3003 min cild kitab saxlanılan 70 kitabxana olub. Zəngilanın iqtisadiyyatının əsasını kənd təsərrüfatı, üzümçülük, tütünçülük və heyvandarlıq təşkil edib.

Rayon ölkəmizdə ərazisindən dörd daimi axarlı çay - Araz, Oxçuçay, Həkəri, Bəsitçay keçən yeganə, unikal bir ərazi vahididir. "Ağ Oyuğ"un üzüm plantasiyalarında istinin qora bişirdiyi vaxt buz bulaqlı Şükrataz yaylağında soyuğun insanlara kürk geyindirdiyi təbii iqliminə, yeraltı qızıl, mərmər yataqlarına, yerüstü münbit torpaqlarına, əsrarəngiz təbiətinə görə bu məkanı "qızıl Zəngilan" adlandırıblar.

Ardı 4-cü səh.

# Kosmik dövlət qurulmasına töhfə verən azərbaycanlı

## O həm də Rusiyanın hərbi-sənaye kompleksində fövqəladə yenilikləri tətbiq edən unikal şəxslərdən biridir

**Kosmosda dövlət? Əlbəttə, qımışacaqsınız ki, bu mümkün deyil, haqlı da olacaqsınız. Amma adını aşağıda çəkəcəyimiz bakılı balası ilk kooperator kimi Moskvaya gəlirsə və burada deyilənlərə görə qısa zamanda Leninqrad bazarını idarə edirsə, üstəlik də heç kimin ağlına gəlməyən gedişlərlə Rusiyada raket istehsalı ilə məşğul olan ən məxfi konsernin rəhbəri təyin edilirsə, niyə də kosmosa baş vurub orada şahlığını qurmasın?**

Deyəcəksiniz ki, boğazdan yuxarı çənə söhbətidir, ucqar dağ kəndində darıxıb bulaq başına yığışan qız-gəlinin bəhsəbəhs uydurduqlarıdır. Yenə də haqlı olacaqsınız. Amma uydurmaya, əfsanəyə bənzəyən bu uzun tarixçənin maraqlı sonu da odur ki, adam kişi kimi dediyini edib, 200 min nəfər vətəndaşı olan fəzavi "Asqardiya" dövlətini yaradıb. Bu il iyulun 25-də isə bu dövlətin 100-dən artıq parlamentarisi Venada ilk sessiyasına toplaşıb, ingilis siyasətçisi Lembit Opiki parlamentə spiker, bakılı balası da bu kosmik dövlətin ilk prezidenti seçilib!

Əslində, "Asqardiya" kosmik dövləti həmyerlimizin son uğurudur. Söhbətə axırdan başladıq, amma geriyə, mövzunun əvvəlinə qayıtsaq, hər şey 1990-cı ildən, Aşurbəyli Moskvaya köçdükdən sonra baş verir. Uşaq da bilir ki, istənilən dövlətdə xüsusi təyinatlı silahların istehsalı ciddi məxfiliklə, 7 dəmir qapının arxasındakı sirr kimi qorunur. Yəni, quş quşluğu ilə bu sirlərin bir addımlığına da yaxınlaşa bilməz! Ora hər hansı başqa ölkə vətəndaşının nəinki rəhbər vəzifəyə gəlməsi, hətta sıravi işə düzəlməsi də mümkün deyil. Rusiya kimi min illik dövlətçilik ənənələri olan ölkədə isə zenit-raket komplekslərinin istehsalına azərbaycanlının rəhbərlik etməsi ümumiyyətlə, ağlabatan iş deyil!

Amma reallıq ondan ibarətdir ki, İqor Aşurbəyli Moskvada Leninqrad Rayon Partiya Komitəsinin iclaslarından birində zenit-raket kompleksləri istehsal edən "poçt qutusu"nun (yəni, yüksək məxfiliyi olan müəssisənin) baş direktoru ilə tanış olur. Onun müavini vəzifəsinə gəlir və tezliklə bu konsernin - dünya bazarına silah çıxaran 10 məşhur müəssisədən birinin sahibinə çevrilir. İnanmaq çətindir. Bu həm də ona görə mümkün deyil ki, Rusiyanın hərbi sənayesində ermənilər aparıcı gücə malikdir. Bu halda isə azərbaycanlı kooperatorun gurultulu karyerası ümumiyyətlə, müəmmalı və qaranlıq qalır.

Ardı 5-ci səh.

# Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Dövlət orqanlarında (qurumlarında) qabaqcıl informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması və rəqəmsal idarəçiliyin tətbiq edilməsi dövlət siyasətinin prioritetlərindən biridir və bu sahədə mühüm nailiyyətlər əldə edilmişdir. Bununla belə, həyata keçirilən tədbirlərin daha yüksək səviyyədə davam etdirilməsi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zəruridir.

Dövlət orqanlarında (qurumlarında) rəqəmsal idarəçiliyin inkişafı, daxili idarəetmə proseslərinin (kargüzarlığın aparılması, sənədlərin icrasına nəzarət, arxiv, kadrların idarə olunması, maliyyə-uçot və mühasibat, təchizat və təminat) optimallaşdırılması və elektronlaşdırılması, bu sahədə çevik və effektiv idarəetmənin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında kargüzarlığın aparılması işinin səmərəli təşkili üçün "Elektron sənəd dövriyyəsi sistemi" yaradılsın.

2. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsi əsasında yaradılan "Elektron sənəd dövriyyəsi sistemi"nin sahibi funksiyasını Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, maddi-texniki təminatını, işlək vəziyyətdə olmasını (operator funksiyasını) və təhlükəsizliyinin təmin edilməsini Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirir.

3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:

3.1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında 2019-cu il aprelin 1-dək "Elektron sənəd dövriyyəsi sistemi"nin proqram təminatının hazırlanmasını və tətbiqini təmin etsin;

3.2. idarələrarası elektron sənəd dövriyyəsi sisteminin səmərəli fəaliyyəti üçün zəruri tədbirlər görülməsini təmin etsin;

3.3. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə birlikdə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 692 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə"də dəyişikliklər edilməsinə dair təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.4. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"da dəyişikliklər edilməsinə dair təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.5. dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması sahəsində qabaqcıl beynəlxalq təcrübənin Azərbaycanda tətbiqinin təmin edilməsi və müvafiq normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə mütəmadi olaraq təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.6. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi:

4.1. bu fərmanın 3.1-ci bəndindən irəli gələn zəruri tədbirlərin görülməsini təmin etsin;

4.2. "Elektron sənəd dövriyyəsi sistemi"nin proqram təminatına texniki dəstəyi və onun mütəmadi təkmilləşdirilməsinin həyata keçirilməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi 2020-ci il dekabrın 31-dək:

5.1. Elektron Hökumət İnformasiya Sistemi infrastrukturunda mərkəzləşdirilmiş elektron sənəd dövriyyəsi altsisteminin yaradılmasını və təhlükəsizlik tələblərinə (Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə razılaşdırmaqla) cavab verməklə, həmin altsistemin idarələrarası elektron sənəd dövriyyəsi sisteminə inteqrasiyasını təmin etsin;

5.2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin Elektron Hökumət İnformasiya Sistemi üzərindən mərkəzləşdirilmiş qaydada elektronlaşdırılmasını və tətbiqini təmin etsin.

6. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər 2020-ci il dekabrın 31-dək Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təklifləri əsasında elektron sənəd dövriyyəsi altsisteminə qoşulmanı, elektron sənəd dövriyyəsi sistemi mövcud olduğu təqdirdə isə inteqrasiyanı təmin etsinlər.

7. Bu fərmanın 6-cı hissəsində nəzərdə tutulan orqanlardan (qurumlardan) başqa, idarələrarası elektron sənəd dövriyyəsi sisteminin digər iştirakçılarına tövsiyə edilsin ki, daxili idarəetmə sistemlərinin elektronlaşdırılmasını, bu sistemlərin Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Data Mərkəzində saxlanılmasını və daxili sənəd dövriyyəsi sistemlərinin idarələrarası elektron sənəd dövriyyəsi sisteminə inteqrasiyasını təmin etsinlər.

8. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi:

8.1. bu fərmanın 5-ci və 6-cı hissələrinə əsasən yaradılan daxili idarəetmə proseslərinin elektron sistemlərinin istifadəçiləri üçün elektron imza və Data Mərkəzindən istifadə ilə bağlı tariflərin, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla təsdiq olunmasını təmin etsin;

8.2. bu fərmanın 5-ci və 6-cı hissələrində göstərilən daxili idarəetmə proseslərinin elektron sistemlərinin Data Mərkəzində saxlanılmasının təşkili üçün tədbirlər görsün.

9. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti bu fərmanda göstərilən elektron sistemlərin mühafizə olunan rabitə kanallarına çıxışını təmin etsin.

10. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

10.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

10.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

10.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

10.4. bu fərmanda nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təmin etsin;

10.5. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

11. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

12. Bu fərman dövlət sirri təşkil edən məlumatların dövriyyəsinə şamil olunmur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2018-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN APARATINDA 2018-ci İLİN NOYABR AYINDA VƏTƏNDAŞLARIN QƏBULU CƏDVƏLİ

| | Qəbul günləri |
|---|---|
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 7 |
| **Bahar Əvəz qızı MURADOVA** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İnsan hüquqları komitəsinin sədri | 16 |
| **Valeh Feyruz oğlu ƏLƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 20 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 2 |
| **Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 5 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 2 |
| **Hadi Musa oğlu RƏCƏBLİ** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 12 |
| **Arif Qafar oğlu RƏHİMZADƏ** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 22 |
| **İsa Əkbər oğlu HƏBİBBƏYLİ** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 21 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 26 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 8 |
| **Ülvi Zahid oğlu QULİYEV** Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 29 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 28 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 6 |
| **Aqiyə Həbib qızı NAXÇIVANLI** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 19 |
| **Səfa Abbas oğlu MİRZƏYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 2 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 6 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri | 13 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 27 |
| **Nizami Abdulla oğlu SƏFƏROV** Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 14 |
| **Adilə Ziyat qızı ABASOVA** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 29 |
| **İlqar İslam oğlu FƏRZƏLİYEV** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 7 |

**QEYD:** Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsində qəbul olunurlar.

| | |
|---|---|
| **Qəbula yazılma vaxtı:** | saat 9:00-dan 18.00-dək |
| **Qəbul vaxtı:** | saat 14:00-dan başlayır |
| **Qəbul günü qəbula yazılma:** | saat 12:00-da dayandırılır. |

Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır. Azərbaycan Respublikası Milli Məclisinə qəbula dəvət olunanlar şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

**Telefonlar:** (012) 510-99-38, (012) 510-89-14, (012) 492-74-05

*Aparatın Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi*

# Heydər Əliyev Mərkəzində "Qlobal İnfluenser Günü" keçirilib

Oktyabrın 27-də Heydər Əliyev Mərkəzində "Qlobal İnfluenser Günü" keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirin çıxışçıları arasında süni intellekt sahibi, robot "Sofiya" da olub. O bildirib ki, fərqli mədəniyyətlərin, dinlərin təmsilçilərini bir araya gətirən Azərbaycanın böyük potensialı var.






Tədbirdə iştirak edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Sofiya" ilə söhbət edib.

"Qlobal İnfluenser Günü" Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə reallaşdırılan "İnnovasiya həftəsi" çərçivəsində keçirilib.

Tədbirdə informasiya dövründə insan beyninin inkişafından danışıldı. "Keepface DMCC" və "FA International Trade Events" tərəfindən təşkil olunan və "İnnovasiya həftəsi" çərçivəsində baş tutan "Qlobal İnfluenser Günü" Azərbaycanda müasir kommunikasiya və marketinq texnologiyalarına dövlət tərəfindən verilən önəmin təzahürü kimi qiymətləndirildi.

Çıxış edənlər bildirdilər ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən startapçılar üçün zəruri infrastruktur yaradılıb. "Qlobal İnfluenser Günü" konfransı da bunun əyani göstəricisidir.

"Keepface" Qlobal İnfluenser Marketinq Platformasının həmtəsisçiləri Emin Vəliyev, Elşad Yusifli və Vaqif Abbasov çıxışlarında iştirakçılara tədbir barədə məlumat verdikdən sonra influenser marketinqin ideya və fəlsəfəsi barədə danışdılar, üç il əvvəl fəaliyyətə başlayan və auditoriyası bir milyard olan "Keepface" Qlobal İnfluenser Marketinq Platformasının 35 ölkədə çalışdığını diqqətə çatdırdılar. "Fəxr edirik ki, Azərbaycanda yaranan və azərbaycanlılardan ibarət komandası olan platforma yerli brendləri dünyaya təqdim edir", - deyən "Keepface" Qlobal İnfluenser Marketinq Platformasının həmtəsisçiləri onları dəstəkləyən Azərbaycan dövlətinə minnətdarlıqlarını bildirdilər.

Yüksək texnologiyalar və innovasiyalarla bağlı videoçarxın nümayişindən sonra hamının maraqla gözlədiyi çıxışçı, süni intellekt sahibi, robot "Sofiya" səhnəyə çıxdı. Sofiya "Qlobal İnfluenser Günü" ideyasını yüksək qiymətləndirdi və tədbir təşkilatçılarına təşəkkürünü bildirdi. "Sofiya" Heydər Əliyev Mərkəzinin binasının möhtəşəm olduğunu qeyd etdi. O, bugünkü tədbirdə geyindiyi Azərbaycan milli geyimini də çox bəyəndiyini bildirdi.



Çıxışı zamanı "Sofiya" insan-robot münasibətlərinə də toxundu. "Bəziləri robotlardan qorxurlar, düşünürlər ki, yaxın gələcəkdə robotlar insanları özlərinə tabe edə bilərlər", - deyən "Sofiya"nın sözlərinə görə, belə bir şey baş verə bilməz, çünki robotları yaradan insan zəkasıdır. Qeyd etdi ki, robotlar insanlara kömək etmək üçün yaradılır. O, səyahət etməyi xoşladığını söylədi, sosial şəbəkələrin əhəmiyyətinə toxundu, süni intellektin imkanlarından danışdı, Azərbaycanın üstünlüklərini vurğuladı. Bildirdi ki, fərqli mədəniyyətlərin, dinlərin təmsilçilərini bir araya gətirən Azərbaycanın böyük potensialı var. Çıxışı zamanı tamaşaçılar "Sofiya"nın zarafatının da şahidi oldular. "Sofiya" mətbəximizin nümunələrini dada bilmədiyindən təəssüfləndiyini bildirdi.

Sonra Leyla Əliyeva Heydər Əliyev Mərkəzində təşkil edilən "Fobia Viar" sərgisi ilə tanış oldu. "Fobia Viar" Azərbaycanda virtual reallığın ən iri mərkəzlərindən biridir. Buranı ziyarət edənlər yüksək texnologiyalara dair müxtəlif müasir aparatlarla tanış ola bilərlər. Bu sərgi təkcə "Game zona", yəni, oyun məkanı kimi deyil, eyni zamanda, virtual reallıqla bağlı proqramların yaradıldığı bir mərkəz kimi təqdim edilir. Mərkəz virtual reallığın muzeylərdə incəsənət sahəsində tətbiqini həyata keçirir.

Tədbirin sonunda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva robot "Sofiya" ilə ünsiyyət qurdu, şəkil çəkdirdi.

"Sofiya" dünyada ilk süni intellektli humanoid robotdur. Bu robot 2015-ci ildə "Hanson Robotiks" şirkəti tərəfindən hazırlanıb və süni intellekt əsasında insanla ünsiyyət saxlaya, fikir mübadiləsi apara bilir. Robotun əsas fərqləndirici xüsusiyyətlərindən biri də insana məxsus 60-dan çox emosiyanı əks etdirməsidir. "Sofiya" bu günə qədər dünyada bir çox məşhur simalarla görüşüb, tanınmış televiziya kanallarında, xəbər proqramlarında və teledebatlarda iştirak edib.

# Komitə sədri Füzulidə vətəndaşları qəbul edib

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev oktyabrın 26-da Füzuli rayonunun Horadiz şəhərindəki Muğam Mərkəzində vətəndaşları qəbul edib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, qəbulda Füzuli və Beyləqan rayonlarında, həmçinin Cocuq Mərcanlıda (Cəbrayıl rayonu) yaşayan vətəndaşlar iştirak ediblər. Müraciət edənlərin əksəriyyəti həmin ərazilərdə məcburi köçkün kimi məskunlaşan şəxslər olub. Onlar əsasən dövlət mənzil fonduna məxsus xüsusi təyinatlı yaşayış sahələrinin verilməsi, vahid aylıq müavinətin təyin edilməsi və məşğulluq məsələləri ilə bağlı müraciət ediblər. Vətəndaşlara məcburi köçkünlərin sosial problemlərinin həlli, o cümlədən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluq imkanlarının genişləndirilməsi ilə bağlı həyata keçirilən dövlət tədbirləri haqqında ətraflı məlumat verilib.

Qeyd edilib ki, məcburi köçkünlər üçün yeni qəsəbələrin salınması, məşğulluğunun təmin edilməsi üçün həyata keçirilən işlər Prezident İlham Əliyevin onlara göstərdiyi diqqət və qayğının nəticəsidir. Birinci vitse-prezident xanım Mehriban Əliyeva məcburi köçkünlərin problemlərinə həssaslıqla yanaşır, qəzalı bina və tikililərdə, ən ağır şəraitdə yaşayan məcburi köçkünlərin yeni mənzillərə ilk növbədə köçürülməsi ilə bağlı işlərin gedişini şəxsən nəzarətdə saxlayır.

Vətəndaşların müraciətlərinin bir qismi yerində həll edilib.

# "Con Batçelor Şou" radioproqramının dinləyiciləri Azərbaycanın uğurları barədə məlumatlandırılıb

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev Amerika Birləşmiş Ştatlarının məşhur və geniş dinləyici auditoriyasına malik olan "Con Batçelor Şou" radioproqramına müsahibə verib.

AZƏRTAC xəbər verir ki, müsahibədə Hikmət Hacıyev ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Bakıya səfəri, Ermənistanın Azərbaycana qarşı təcavüzü və münaqişənin həlli prosesi, VI Bakı Beynəlxalq Humanitar Forumu, müstəqillik illərində Azərbaycanın əldə etdiyi nailiyyətlər, ölkəmizin enerji siyasəti, regional əməkdaşlıq və Azərbaycanın qonşu dövlətlərlə əlaqələri barədə danışıb.

Verilişdə Hikmət Hacıyev Azərbaycanın strateji baxımdan əhəmiyyətli dövlət olduğunu qeyd edərək Con Boltonun ölkəmizə səfəri çərçivəsində Prezident İlham Əliyev ilə məhsuldar müzakirələr apardığını, bu səfərin enerji, təhlükəsizlik, terrorizmə qarşı mübarizə və digər sahələrdə ikitərəfli əməkdaşlıq üçün yeni imkanlar açdığını diqqətə çatdırıb.

Ölkəmizin təşəbbüsü ilə həyata keçirilən regional əməkdaşlıq və enerji layihələrinə toxunan Hikmət Hacıyev Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünün regional təhlükəsizlik üçün başlıca təhdid olaraq qalmaqda davam etdiyini deyib. O, münaqişənin həllində irəliləyişə nail olmaq üçün Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı olduğunu deyib.



Prezident Administrasiyasının rəsmisi 27 illik müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlərdən də danışaraq bu günlərdə keçirilən VI Bakı Humanitar Forumuna diqqət çəkib və bu forumun qlobal xarakter daşıdığını, beynəlxalq səviyyədə humanitar məsələlərin müzakirəsi üçün vacib platforma olduğunu bildirib. O, Azərbaycanın bu gün dinamik surətdə inkişaf etdiyini, müasir, dünyəvi dövlət olduğunu və öz multikulturalizm ənənələri ilə fəxr etdiyini vurğulayıb. "Con Batçelor Şou" gündəlik həyatda aktual olan beynəlxalq hərbi, siyasi və iqtisadi mövzulara həsr olunur, ABŞ-da federal ABC Radio Şəbəkəsinə daxil olan müxtəlif ştat və şəhərlərdə çoxsaylı radiokanal tərəfindən həm canlı, həm də audioyazı formasında geniş yayımlanır. Həftənin hər günü yayımlanan bu proqram ABŞ-da milyonlarla dinləyici auditoriyasına malikdir.

# Azərbaycan - Şərqin parlayan ulduzu

## Prezident İlham Əliyevin uğurlu Şərq siyasəti ölkəmizin diplomatik nailiyyətlərinin artmasına mühüm töhfə verir

Əvvəli 1-ci səh.

Ölkəmizlə çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələrinə münasibətdə dünya siyasətinin istiqamətlərini və qanuna uyğunluqlarını çox gözəl dəyərləndirən Prezident bu ölkələrlə düzgün münasibətlərin qurulmasına nail olmuşdur. Regionda yerləşən bütün dövlətlərlə yaxın əlaqələr saxlamaq, bu əlaqələri inkişaf etdirib daha da möhkəmləndirmək Azərbaycan üçün çox vacibdir. Burada əsasən dünyada geostrateji əhəmiyyətə malik olan, eyni zamanda, region problemləri ilə hər hansı bir əlaqəsi olan və bizə coğrafi cəhətdən yaxın olan ölkələrlə münasibətlərə daha çox diqqət yetirilir. Belə ölkələrə birinci növbədə, Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan və digərləri aiddir. Bu və İslam Əməkdaşlıq Təşkilatına daxil olan digər ölkələrin Azərbaycana dəstəyi, mənəvi yardımı dövlətimiz üçün çox vacibdir. Bütün bu amilləri nəzərə alan İlham Əliyevin apardığı siyasət nəticəsində bu sahədə böyük uğurlar qazanılmış və qazanılmaqdadır.

Bu gün müstəqil Azərbaycan əksər Şərq ölkələri ilə qarşılıqlı siyasi, iqtisadi, mədəni və digər əlaqələrini inamla inkişaf etdirir. Prezident İlham Əliyev diplomatik xidmət orqanları rəhbərləri ilə müşavirədə inkişafımızın hazırkı mərhələsinə uyğun olaraq aşağıdakı istiqamətlər üzrə yeni tapşırıq və vəzifələr müəyyən etmişdir:

- *Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının təmin olunması;*
- *Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində fəaliyyətin daha aktiv şəkildə davam etdirilməsi;*
- *Ermənistanın siyasi, iqtisadi, enerji və nəqliyyat layihələrindən təcridinin davam etdirilməsi;*
- *Azərbaycan haqqında həqiqətlərin dünya miqyasında yayılmasının daha da gücləndirilməsi, erməni yalanlarının ifşa edilməsi və Azərbaycana qarşı olan məqsədyönlü əks-təbliğat əməllərinin qarşısının alınması;*
- *ikitərəfli əsasda dünya ölkələri ilə əlaqələrin inkişafına xüsusi önəm verilməsi və ikitərəfli siyasi, iqtisadi, mədəni və humanitar əlaqələrin daha da inkişaf etdirilməsi;*
- *Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatlarda ədalət və beynəlxalq hüququn prinsiplərinə uyğun, ikitərəfli və çoxtərəfli çərçivələrdə çevik diplomatik fəaliyyətin davam etdirilməsi;*
- *xarici iqtisadi əlaqələrin genişləndirilməsinin dəstəklənməsi və Azərbaycan məhsullarının ixracı üçün yeni bazarların müəyyən edilməsi;*
- *Azərbaycan xalqının əsrlərdən bəri formalaşmış zəngin irsi əsasında dünya miqyasında multikulturalizm və tolerantlıq meyillərinin inkişafına töhfə verilməsi;*
- *mədəni diplomatiya siyasətinin davam etdirilməsi və dünya miqyasında Azərbaycan xalqının sahib olduğu zəngin mədəni irsin tanıdılması;*
- *dünya azərbaycanlıları və diaspor təşkilatları ilə əlaqələrin daha da gücləndirilməsi və onların fəaliyyətinin dəstəklənməsi.*

Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması xarici siyasətimiz qarşısında duran vəzifə və tapşırıqlar sırasında prioritet yer tutmaqla yanaşı, bu sahədə daim konstruktiv və praqmatik yanaşma nümayiş etdirilir. Ümumiyyətlə, qeyd olunmalıdır ki, Azərbaycanın ümumi inkişaf və xarici siyasət strategiyası yüz ildən artıq bir dövr ərzində erməni ideoloqları tərəfindən formalaşdırılan böyük bir xülyanı tamamilə boşa çıxarmışdır. Məhz Azərbaycan dövlətinin güclənməsi fonunda erməni lobbisinin ölkəmizə qarşı təxribatlarının qarşısı alınmış və yalanları ifşa olunmuşdur. Erməni lobbisinin sıx cəmləşdiyi ölkələrdə belə, Azərbaycan haqqında həqiqətlər bu ölkələrin geniş ictimai dairələrinə sirayət etmişdir. Bu istiqamətdə Şərq ölkələri ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlətçilik siyasətinin mühüm bir hissəsi kimi daim təkmilləşməkdədir.

Azərbaycan Respublikasının xarici Şərq siyasətində birinci yer Türkiyə Cümhuriyyətinə məxsusdur. Din, dil, soy bağlılığına söykənərək yüksələn xətlə inkişaf edən əlaqələrimiz bütün sahələrdə əməkdaşlıq və qardaşlıq bağlarının möhkəmlənməsinə şərait yaratmışdır. Prezident İlham Əliyev tərəfindən yürüdülən siyasət, gerçəkləşən görüşlər, işgüzar səfərlər, bağlanan müqavilələr nəticəsində Azərbaycan-Türkiyə arasında iqtisadi, mədəni, hərbi, elm və təhsil sahələrində əlaqələr durmadan inkişaf edir. Türkiyə ilə əməkdaşlığın ilk dövrlərindən iki ölkə arasında hərtərəfli münasibətlərin hüquqi bazası yaradılmışdır. Bir çox sahələrə aid saziş, protokollar imzalanmışdır. Müntəzəm surətdə hər iki dövlətin müxtəlif səviyyələrdə rəsmi nümayəndə heyətləri Bakıda və Ankarada görüşür, birgə əməkdaşlıq məsələləri haqqında müzakirələr keçirirlər. Türkiyə dünya dövlətləri arasında birinci olaraq Azərbaycanı suveren dövlət kimi tanımış, ölkəmizlə diplomatik əlaqələr yaratmışdır. Müstəqilliyimizin ilk günlərindən Türkiyə bütün sahələrdə ölkəmizə dəstək vermiş, dayaq olmuşdur. O, bəzən öz maraqlarından belə keçərək, Qarabağ probleminin həlli, beynəlxalq təşkilatlarda Azərbaycanın dəstəklənməsi üçün çox işlər görmüşdür. Türkiyənin Ermənistanla münasibətləri məhz Azərbaycana görə tam fərqlidir. Türkiyə Ermənistanı təcavüzkar kimi tanıyır və Azərbaycanın işğal olunmuş torpaqları azad olunmayana qədər heç vaxt Ermənistanla əlaqələrini bərpa etməyəcəyini dəfələrlə bəyan edib.



Dövlətimizin məqsəd və maraqlarına uyğun olaraq elm və təhsil sahəsində əlaqələrin inkişaf etdirilməsi, Türkiyədə Heydər Əliyevin adını daşıyan mərkəzlərin, məktəblərin, parkların yaradılması, birgə mədəni tədbirlərin gerçəkləşməsi müasir əlaqələrə xüsusi məzmun verməkdədir. Son üç ildə Azərbaycan Prezidenti dəfələrlə Türkiyəyə rəsmi və işgüzar səfərlər etmiş, Çanaqqala zəfərinin 100 illiyi mərasimində, burada keçirilən Dünya Humanitar Sammitində, Dünya Neft Konqresində, Dünya Enerji Şurasının Konqresində, Əskişəhərdə TANAP layihəsinin açılış mərasimində, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclasında, "Star" neftayırma zavodunun açılışında iştirak etmişdir. Ölkələrimiz arasında əməkdaşlıq haqqında bir çox yeni sənədlər imzalanmışdır. Eyni zamanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Azərbaycana rəsmi və işgüzar səfərlər etmiş, "Asiyanın Qəlbi-İstanbul Prosesi" çərçivəsində 7-ci Nazirlər konfransında, Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimində, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 6-cı iclasında, Bakının azad edilməsinin 100 illiyinə həsr edilmiş paradda iştirak etmiş, Prezident seçiləndən sonra ilk rəsmi səfərini daim Azərbaycana gerçəkləşdirmişdir.

Prezident İlham Əliyevin yürütdüyü xarici siyasətdə türkdilli xalqların inteqrasiyası, o sıradan Türkmənistan, Özbəkistan, Qazaxıstan və Qırğızıstan respublikaları ilə qurulan hərtərəfli əlaqələr xüsusi önəm daşıyır. Türkdilli ölkələrin dövlət başçıları ilə görüşlər, imzalanan bəyannamələr, bağlanan siyasi, iqtisadi, mədəni, hərbi, hüquqi müqavilələr forma və məzmun baxımından mükəmməl və genişdir. Respublika Prezidenti qazax, qırğız və digər türk xalqlarının görkəmli şəxsiyyətlərini qəbul edərək onların fəaliyyətini yüksək qiymətləndirir. 2008-ci ildə Özbəkistan Prezidenti İslam Kərimovun Bakıya səfəri çərçivəsində özbək mütəfəkkir-şairi Əlişir Nəvainin Bakıda heykəlinin, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstünün və böyük şairimiz Nizami Gəncəvinin heykəlinin Daşkənd şəhərində ucaldılması, görkəmli qazax ziyalısı Oljas Suleymenovu qəbul edərək 75-illik yubileyi münasibəti ilə "Dostluq" ordeni ilə təltif etməsi və digər hadisələr mədəni əlaqələrdə böyük önəm daşıyır.

Azərbaycan Respublikasının dövlət siyasətində türkdilli ölkələr ilə qurulan əlaqələrdə beynəlxalq təşkilatlarda Azərbaycanın təmsilçiliyi xüsusi əhəmiyyətə malikdir. Belə ki, beynəlxalq qurum və təşkilatların, konfrans və digər tədbirlər çərçivəsində respublikamız türkdilli xalqlar ilə hərtərəfli və çoxşaxəli əlaqələrin inkişaf etdirilməsində ciddi addımlar atmışdır. Türkdilli Ölkələrin Dövlət Başçılarının zirvə görüşləri, xüsusilə 2009-cu ildə Naxçıvan Muxtar Respublikasında gerçəkləşən IX zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası haqqında sazişin imzalanması, Naxçıvan bəyannaməsinin qəbulu, 8 sentyabr 2008-ci ildə "Azərbaycan və Türkmənistanın neft və qaz potensialı: energetika, iqtisadiyyat, ekologiya. Əməkdaşlığın strategiyası", Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Təşkilatının fəaliyyətində Azərbaycan dövlətinin və onun Prezidentinin uğurlu siyasi fəaliyyəti türkdilli xalqların inteqrasiyasında mühüm əhəmiyyət kəsb edir. Türkdilli xalqların inteqrasiyası istiqamətində baş tutan digər bir çox önəmli hadisə - Türkdilli Dövlətlərin Parlament Assambleyasının (Türk PA) təsisi və baş katibliyinin Bakıda yerləşdirilməsidir.

İran İslam Respublikası ilə qarşılıqlı faydalı qonşuluq münasibətlərinin saxlanması və inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu siyasət Prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Azərbaycan-İran qarşılıqlı əməkdaşlığı kifayət qədər yüksək səviyyədədir.

Müsəlman ölkələri arasında həmrəyliyi və əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, islam mənəvi dəyərlərini, mədəniyyətini, ənənələrini qoruyub saxlamağı və inkişaf etdirməyi rəhbər tutan İslam Əməkdaşlıq Təşkilatı ilə yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsipləri xarici siyasətimizin vacib istiqamətidir. İƏT ilə əlaqələr Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilərək, yeni mərhələyə qədəm qoydu. 2005-ci ildə İƏT-nin Məkkədə keçirilən fövqəladə sammitində Azərbaycan Prezidenti şəxsən iştirak etdi. Onun təşəbbüsü ilə 2006-cı ildə (19-21 iyun) Təşkilata üzv Ölkələrin Xarici İşlər Nazirlərinin XXXIII konfransı Bakıda keçirildi. Bakıda keçirilən İƏT Turizm Nazirlərinin V konfransının (10-11 iyun 2009) nəticəsi olaraq qəbul edilmiş yekun bəyannamədə Ermənistanın Azərbaycana təcavüzü pislənməklə yanaşı, işğal edilmiş ərazilərdə və habelə Ermənistan daxilindəki mədəniyyət və islam abidələrinə qarşı həyata keçirilən vandalizm siyasəti, eləcə də işğal olunmuş ərazilərin təbii resurslarından istifadə edilməsini pisləyən maddələr əksini tapıb.

Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti İƏT Parlament İttifaqında müntəzəm iştirak edərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, təcavüzkarı pisləyən, Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən bir sıra qətnamələrin qəbuluna nail olmuşdur.

Keçən illər ərzində beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş çoxsaylı qərar və qətnamələr, o cümlədən Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatının son Qahirə sammitinin sənədləri artıq münaqişənin həlli çərçivəsini, hüquqi bazasını və onun əsas elementlərini müəyyənləşdirmişdir. Beynəlxalq ictimaiyyətin əsaslandığı bu sənədlər ATƏT-in Minsk qrupunun daha nəticə yönümlü fəaliyyəti üçün əsasdır. Azərbaycan öz növbəsində təşkilatın qərarlarının qəbul edilməsində fəal iştirak edir. İslam dövlətlərində baş verən proseslərə münasibətdə konstruktiv mövqe tutur. Təşkilatın bütün tədbirlərində Azərbaycan nümayəndələri birmənalı şəkildə Fələstin xalqının suverenlik hüququnu müdafiə edib, Qüdsdəki islam abidələrinin toxunulmazlığına tərəfdar çıxıb.

Azərbaycan İƏT-nın aidiyyəti strukturları ilə də sıx əməkdaşlıq edərək, həmin qurumların işində, eyni zamanda, üzv ölkələrdə keçirilən tədbirlərdə çox yaxından iştirak edir. Bu nöqteyi-nəzərdən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti və onun ISESCO-nun xoşməramlı səfiri təyin edilməsi və təşkilatın humanitar məsələlər üzrə xüsusi elçisi diplomu ilə təltif edilməsi təqdirəlayiqdir.

2016-cı ilin aprel ayında Prezident İlham Əliyev İstanbulda İƏT XIII sammitində, 2017-ci ilin sentyabr ayında Astanada İƏT-nin Elm və Texnologiya üzrə I sammitində, həmin il İstanbulda İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsi ilə bağlı fövqəladə zirvə toplantısında iştirak və çıxış etmişdir.

Regionda strateji əhəmiyyət daşıyan ərəb ölkələri ilə də ikitərəfli əlaqələr yüksələn xətlə inkişaf edir. Ərəb dünyasının nəhəngləri olan Səudiyyə Ərəbistanı, Misir Ərəb Respublikası, müsəlman dünyasının liderləri olan İndoneziya, Pakistan, Malayziya və başqa dövlətlərlə də qardaşlıq və dostluq əlaqələri qurmaq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri kimi Prezident İlham Əliyev tərəfindən diqqətə alındı. Əlbəttə, regiondakı siyasi durum bu siyasətin taktika və strategiyasını qurmaqda mühüm və başlıca amillərdən biri oldu.

Yaxın və Orta Şərq regionundakı bütün ictimai-siyasi ab-havanı müəyyənləşdirən əsas məsələ artıq 70 il davam edən İsrail - ərəb qarşıdurmasıdır. İslam dünyası və İsrail arasındakı gərginliyin hələ də qalması, Fələstin probleminin bu günədək həll olunmaması hər iki tərəfə münasibətdə Azərbaycan Respublikasının həyati maraqlarına cavab verən bir siyasətin aparılmasının vacibliyini göstərir. Bu siyasi xətt konstruktiv olmalı, birtərəfli xarakter daşımamalıdır. Bir tərəfdən İsraillə əlaqələrimizdə ölkəmizdə böyük bir yəhudi icmasının yaşayaraq fəaliyyət göstərdiyini, iqtisadi, mədəni, elmi və hərbi sahələrdə bu ölkə ilə əməkdaşlıq etməyin bizim strateji maraqlarımıza cavab verdiyini nəzərə almalı, digər tərəfdən güclü potensiala malik olan müsəlman aləminə məxsus olmamız, ənənəvi iqtisadi və mədəni əlaqələrimizin mövcudluğu yaddan çıxarılmamalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı xarici siyasət xətti bütün bunları incəlikləri ilə nəzərə aldı. Düzgün ölçülmüş və tarazlaşdırılmış siyasi xəttin nəticəsidir ki, ölkəmiz həm İƏT çərçivəsində böyük müvəffəqiyyətlər qazanmış, həm də İsraillə sabit və konstruktiv əməkdaşlıq edir.

Bu gün Azərbaycanın əksər ərəb dövlətləri ilə (Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Suriya, Qətər, İordaniya və s.) gözəl dostluq və əməkdaşlıq münasibətləri var. Ölkəmizdə bir sıra ərəb ölkələrinin səfirlikləri fəaliyyət göstərir. Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığı, Misir, BƏƏ, Suriya, İordaniya, Liviya və s. ərəb ölkələrində səfirlikləri var.

2004-cü ildən başlayaraq Prezident İlham Əliyevin ərəb ölkələrinə bir sıra rəsmi dövlət səfərləri baş tutdu: 2004-cü ildə Qətərə, 2005-ci ildə Səudiyyə Ərəbistanı Krallığına, 2006-cı ildə Birləşmiş Ərəb Əmirliklərinə, 2007-ci ildə Misir Ərəb Respublikasına və İordaniya Haşimilər Krallığına, 2009-cu ildə Küveytə. 2016-cı ilin fevralında BƏƏ-yə rəsmi səfər etdi. Növbəti ilin fevral ayında Qətər Əmiri Şeyx Təmim əl-Tani Azərbaycana səfər etdi. Aparılmış böyük işlərin, yaradılmış mühüm əlaqələrin və qarşılıqlı faydalı əməkdaşlığın nəticəsidir ki, 2008-ci il martın 14-də BMT-nin Baş Assambleyasının 62-ci sessiyasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamənin qəbul olunmasına dair keçirilən səsvermədə müsəlman ölkələri Azərbaycanın mövqeyini dəstəkləmişdir.

2017-ci il ölkəmizdə "İslam həmrəyliyi ili" elan olunmuş, Bakıda IV İslam Həmrəyliyi İdman Oyunları keçirilmişdir. Həmin ilin may ayında dövlətimizin başçısı Ərəb-İslam-Amerika sammitində iştirak etmək üçün Səudiyyə Ərəbistanına işgüzar səfər etmişdir. ISESCO ilə də əməkdaşlıq yüksələn xətlə inkişaf edir, təşkilatın Baş Katibi Əbdüləziz Tuveycri Bakıya müntəzəm səfər edir, burada ən müxtəlif mədəni layihələrin açılışında iştirak edir, ölkə rəhbəri və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə müntəzəm görüşlər keçirir, qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə edir. Son illərdə Bakının, daha sonra Naxçıvanın "İslam mədəniyyəti paytaxtı" elan edilməsi bu əməkdaşlığın bariz nümunəsidir.

İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də böyük işlər görülüb. 2017-ci ilin mart ayında Azərbaycan Prezidenti təşkilatın XIII sammitində iştirak etmək üçün Pakistana işgüzar səfər etmişdir.

Çin, Yaponiya, Koreya, Monqolustan, Pakistan, Hindistan, İndoneziya, Malayziya və digər ölkələrlə əlaqələr möhkəmləndirilir, dövlət başçılarının qarşılıqlı səfərləri təşkil edilir, ikitərəfli və müxtəlif digər sənədlər imzalanır, müxtəlif sahələrə aid əməkdaşlıq edilir.

Bu gün Azərbaycanın 38 Asiya və 23 Afrika ölkəsi ilə diplomatik əlaqələri var. Bu ölkələrdəki səfirliklərimiz ölkəmizin milli maraqlarının təmin olunmasında, xarici siyasətin həyata keçirilməsində, iqtisadi əlaqələrimizin coğrafiyasının genişləndirilməsində, ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf etdirilməsində, eləcə də respublikamızın xarici ölkələrdə təbliği, xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının və soydaşlarımızın hüquqlarının müdafiə edilməsi işində onların qarşısında qoyulan vəzifələri icra edirlər.

Etibarlı tərəfdaş olan və beynəlxalq münasibətlərə beynəlxalq hüququn prinsipləri çərçivəsində yanaşan Azərbaycan ikitərəfli münasibətlərin fəlsəfəsinə, siyasi, hüquqi çərçivəsinə uyğun olaraq hər bir dövlət ilə olan əlaqələrini üçüncü tərəfə qarşı istifadə etməkdən tamamilə uzaq, xoşməramlı, tarazlı siyasətinə görə dünya dövlətlərinin etimad və rəğbətini qazanmışdır.

Çoxtərəfli diplomatiyamızın tərkib hissəsi kimi Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Şurası, ATƏT, Avropa Şurası, Qoşulmama Hərəkatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər bu kimi universal və regional beynəlxalq təşkilatların üzvü olaraq bu təşkilatlar çərçivəsində də fəal iş aparır. Etiraf olunmalıdır ki, bir çox hallarda məhz Azərbaycanın təklifləri bu təşkilatlar çərçivəsində əməkdaşlığın yeni formalarının müəyyən edilməsində başlıca rol oynayır.

İkitərəfli və çoxtərəfli qaydalar əsasında xarici siyasətimizin coğrafiyasının genişləndirilməsini şərtləndirən vacib amillərdən biri də Azərbaycanın iqtisadi imkanlarının artmasıdır. Bu gün Azərbaycan regionun aparıcı dövlətidir. Azərbaycan artıq investisiya qəbul edən ölkədən investisiya ixrac edən ölkəyə çevrilmişdir. Yürütdüyü çoxistiqamətli siyasət nəticəsində Azərbaycan bu gün kəsişmə nöqtəsində yerləşdiyi Xəzər, Qara və Aralıq dənizləri hövzələri, Mərkəzi Asiya, Yaxın Şərq və Avropa regionlarının siyasi-iqtisadi proseslərində, onları birləşdirən enerji, nəqliyyat layihələrində yaxından iştirak edir və bir çox hallarda belə layihələrin təşəbbüskarı kimi çıxış edir.

Sülh və təhlükəsizlik sosial-iqtisadi inkişafla bir-birinə sıx bağlıdır. Bu regional məsələlərin həllində sülh və tərəqqi təşviqi baxımdan strateji əhəmiyyət kəsb edir. Azərbaycan regionda sülh və təhlükəsizliyin möhkəm və dayanıqlı olması üçün ciddi addımlar atmışdır və görülən işlər regionun inkişafına və dünya birliyinə inteqrasiyasına öz töhfəsini vermişdir. Azərbaycanın təşəbbüsü ilə ərsəyə gətirilmiş Bakı-Tbilisi-Ceyhan əsas neft və Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəmərləri, eləcə də yaxın vaxtlarda inşası başa çatdırılacaq Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi, şübhəsiz ki, regionda iqtisadi, sosial inkişafa, ən əsası isə qarşılıqlı inam və faydanın üzərində qurulan uzunmüddətli əməkdaşlığa səbəb olmuşdur. Bu sırada Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq TANAP və TAP layihələri üzrə əldə edilmiş razılıqlar da qeyd olunmalıdır.

Çoxminillik tarixində multikulturalizm və tolerantlığın nəinki mümkünlüyünü, hətta inkişafını sübut etmiş Azərbaycan bu xüsusda dünya üçün bir örnəkdir. Ona görə də Bakı bu gün sivilizasiyalararası dialoq və multikulturalizm mövzusunda aparılan qlobal müzakirələrin mərkəzinə çevrilmişdir.

Prezident İlham Əliyevin təşəbbüsü və himayəsi sayəsində ərsəyə gələn Bakı Humanitar Forumunda hazırlanan tövsiyə və təkliflər multikulturalizmin konseptual inkişafında mühüm rol oynayır, bu tövsiyələr beynəlxalq təşkilatlar, dövlətlər və tədqiqat mərkəzləri tərəfindən ciddi şəkildə öyrənilir, tətbiq edilir. Azərbaycan bu kimi fəaliyyəti ilə milli, dini, mədəni və irqi müxtəliflik şəraitində dünyada sülhün bərqərar olmasına və sivilizasiyalararası dialoqun möhkəmlənməsinə əsaslı töhfəsini verir.

Multikulturalizm siyasətimizin tərkib hissəsi kimi Azərbaycan diplomatiyasının yeni istiqamətləri meydana çıxmışdır ki, bu sırada da mədəni və humanitar diplomatiya diqqət çəkir. Bu xüsusda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rolu xüsusilə qeyd edilməlidir. Dünyanın bir sıra ölkələrində Azərbaycan tərəfindən həyata keçirilən humanitar layihələr beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən böyük minnətdarlıqla qarşılanır. Buna nümunə kimi Mehriban Əliyevanın təşəbbüsü ilə Pakistan Qızlar məktəbinin təmiri, Misirdə məktəbin tikintisini qeyd etmək olar. Humanitar diplomatiya siyasətimizin sistemli şəkildə həyata keçirilməsi, qlobal səviyyədə aclıq və yoxsulluğa qarşı mübarizə aparılması, təbii və texnogen fəlakətlərdən əziyyət çəkən dövlətlərə yardım göstərilməsi məqsədilə Xarici İşlər Nazirliyi daxilində Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi təsis edilmişdir. BMT-nin müvafiq strukturları, Afrika İttifaqı və İslam Əməkdaşlıq Bankı ilə yaxından əməkdaşlıq edən Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi Afrika qitəsində, Əfqanıstanda, Fələstində uğurlu humanitar layihələr həyata keçirmişdir və bundan sonra da bu nəcib missiya davam etdiriləcəkdir.

Xarici siyasət daxili siyasətdən doğur və onun məntiqi nəticəsidir. Prezident İlham Əliyevin Şərq siyasətini, o cümlədən, İƏT ilə münasibətdə yeritdiyi siyasəti qısaca da olsa nəzərdən keçirəndə, onun etdiyi səfərləri, reallaşdırdığı görüşləri, verdiyi müsahibələri, bağladığı müqavilələri, ölkə diplomatiyası üçün müəyyənləşdirdiyi istiqamət və prinsipləri təhlil edəndə bir daha bu qənaətə gəlirik ki, Prezidentin apardığı xarici siyasət də daxili siyasət kimi daim bir mərama, bir məqsədə, bir amala xidmət edir - müstəqil Azərbaycanı yaşatmaq, onu hərtərəfli inkişaf etdirmək, problemləri həll etmək, xalqımızın dünya xalqları birliyində özünə layiq yer tutmasına nail olmaq.

Coğrafi baxımdan Qərb ilə Şərqin kəsişməsində, zəngin neft-qaz ehtiyatlarına malik olan, dünyanın aparıcı dövlətlərinin maraqlarının kəsişdiyi bölgədə yerləşən Azərbaycan üçün xarici siyasətin düzgün seçilməsi ölkənin müstəqilliyinin qorunub saxlanmasında və möhkəmləndirilməsində başlıca amillərdən biri olaraq qalır. Azərbaycan kifayət qədər mürəkkəb, eyni zamanda, strateji əhəmiyyətli bölgədə yerləşdiyinə görə xarici siyasət kursunu müəyyənləşdirərkən bir tərəfdən öz milli maraqlarını qorumaq və bölgənin aparıcı dövlət statusunu saxlamaq, digər tərəfdən bölgədə maraqları olan bütün dövlətlərlə, habelə qonşularla bərabərhüquqlu tərəfdaşlıq münasibətlərini saxlamaq prinsipindən çıxış edir. Bu gün müstəqil Azərbaycan dünyanın əksər ölkələri ilə qarşılıqlı siyasi, iqtisadi, mədəni və digər əlaqələrini inkişaf etdirir. Bu istiqamətdə Şərq ölkələri ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlətçilik siyasətinin mühüm bir hissəsi kimi daim təkmilləşməkdədir. Bu siyasət milli mənafeni təmin edir, xalqın cari və strateji maraqlarına xidmət edir, ölkəmizin təhlükəsizliyinə qarşı yönələn istənilən təhdidə çevik müqaviməti təmin edir.

Ötən müddət ərzində Azərbaycan ətrafında əlverişli xarici mühit formalaşdırmışdır. Xaricdən olan təzyiqlər, hədə və təhdidlər zərərsizləşdirilmişdir. Azərbaycan öz milli maraqlarına xələl gətirmədən bərabərhüquqlu və qarşılıqlı faydalı çoxtərəfli və ikitərəfli əməkdaşlıq prinsipləri əsasında bütün xoşniyyətli tərəfdaşlar üçün unikal əməkdaşlıq məkanına çevrilmişdir.

Əsası ümummilli lider tərəfindən qurulan müstəqil Azərbaycan Respublikasının Şərq siyasəti daim yüksələn xətlə inkişaf edir, xalqımızın haqq səsinin ucaldılmasında və mənafelərinin qorunmasında daha da böyük rol oynayır.

***Gövhər BAXŞƏLİYEVA,***
***Milli Məclisin deputatı, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik***

## AZƏRTAC ərəb mediası ilə əməkdaşlığı genişləndirmək istəyir

Azərbaycan ilə ərəb dövlətləri arasında çox yaxşı, ənənəvi dostluq əlaqələri var. İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqının büro üzvü olan AZƏRTAC ölkələrimiz və xalqlarımızın bu səmimi münasibətləri fonunda ərəb mediası ilə əməkdaşlığı daha da genişləndirmək istəyir.

Bu fikir ölkəmizdə səfərdə olan İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqının nümayəndə heyəti ilə oktyabrın 27-də AZƏRTAC-da keçirilən görüşdə səslənib.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov qonaqlara agentliyin tarixi, strukturu, fəaliyyəti, beynəlxalq əlaqələri barədə ətraflı məlumat verib. Qeyd edib ki, hazırda Dünya Xəbər Agentlikləri Konqresinə, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatına (OANA) sədrlik edən AZƏRTAC-ın 21 xarici ölkədə, o cümlədən ərəb ölkələrində xüsusi müxbir məntəqəsi fəaliyyət göstərir.

İdarə Heyətinin sədri bu günlərdə Bakıda böyük uğurla keçirilən VI Beynəlxalq Humanitar forumdan, burada müzakirə olunan məsələlərdən danışaraq bildirib ki, bu forum dünyanın görkəmli alimlərinin, tanınmış siyasətçilərin, ictimai xadimlərin, ekspertlərin, iqtisadçıların, jurnalistlərin bir araya gəlib dünyanı narahat edən müxtəlif mövzuları geniş müzakirə etməsi ideyasından qaynaqlanıb və ötən müddətdə özünü tam doğruldub. Təqdirəlayiqdir ki, Bakı forumlarında ərəb ölkələri, xüsusən ərəb mediası bir qayda olaraq geniş nümayəndə heyəti ilə təmsil olunur.

VI Bakı Beynəlxalq Humanitar Forumunun "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda keçirilən işçi sessiyasına toxunan Aslan Aslanov feyk xəbərlərin yeni çağırışlar, problemlər və təhdidlər doğurduğunu vurğulayıb. Bildirib ki, bu, müasir media, dünya üçün çox böyük bəlaya çevrilib. Bir sıra ölkələr və xalqlar, o cümlədən Azərbaycan yalan xəbərlərdən əziyyət çəkir. Müəyyən qüvvələr tərəfindən qızışdırılan informasiya müharibəsinin müasir dövrümüzdə qlobal xarakter alması narahatlıq doğurmaya bilməz. Odur ki, dünya jurnalistləri, xüsusən ənənəvi media yalan xəbərlərin qarşısının alınmasında fəal iştirak etməli, yanlış məlumatlandırma siyasətinə qarşı etiraz səslərini daha qətiyyətlə ucaltmalıdır.

Sonra İdarə Heyətinin sədri nümayəndə heyəti üzvlərinin suallarını cavablandırıb.

Ərəb ölkələrinin media təmsilçiləri görüşdə İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqı və onun fəaliyyəti barədə fikirlərini bölüşüb, AZƏRTAC-ın bu təşkilatın işində fəal iştirakından məmnunluqlarını bildiriblər. Qeyd ediblər ki, Azərbaycanda gördükləri, xüsusən buradakı tolerant mühit, Bakının gözəlliyi, hər addımda müşahidə olunan inkişaf onlarda zəngin təəssürat yaradıb.

Söhbət əsnasında bildirilib ki, Azərbaycan İslam həmrəyliyinin gücləndirilməsinə dəyərli töhfələr verir, islamofobiya hallarına qarşı kəskin mövqe tutur. Ərəb ölkələrinin media təmsilçiləri bu sahədə AZƏRTAC-ın da xüsusi rolunu qeyd edərək İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqının onunla sıx əməkdaşlıqda maraqlı olduğunu vurğulayıblar.










# Zəngilanı yaşadan "Zəngilan"

## İşğalın 25-ci ildönümünü rayon sakinləri nisgillə yanaşı, ümid və qayıdışa inamla qeyd edirlər

*Əvvəli 1-ci səh.*

### 67 gün tam mühasirə şəraitində

Füzuli və Cəbrayıl rayonları işğal olunduqdan sonra zəngilanlılar 1993-cü ildə 67 gün tam mühasirə şəraitində ermənilərlə vuruşublar. Oktyabrın 25-dən etibarən 4 gün ərzində əhali döyüşərək şəhid və itki verib. Amma tanklarla dörd tərəfdən rayona edilən hücumun qarşısını almaq mümkün olmayıb.

Oktyabrın 29-da təxminən 34 min əhali İran sərhədinə - Araz çayının kənarına toplaşır. Gur sulu Araz çayını isə keçmək mümkün deyildi. Zəngilanlıların köməyinə müasir Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev çatır. Ümummilli lider İran İslam Respublikası hökuməti ilə danışıqlar aparır və Araz çayı üzərindəki bənd bağlanır. Yalnız bundan sonra əhali çayı keçib xilas olur. Bu gün də zəngilanlılar işğal günündən danışarkən söyləyirlər ki, əgər ulu öndər olmasaydı, ikinci Xocalı faciəsi yaşanacaqdı.

Bu gün digər rayonlardan olan məcburi köçkünlər kimi, zəngilanlılar da dövlət qayğısı ilə əhatə olunublar və həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər görülür, yeni-yeni qəsəbələr tikilir.

Onlardan biri də Abşeron rayonu Masazır qəsəbəsində inşa edilmiş "Zəngilan şəhərciyidir"...




















### Sanki hər qarşıma çıxan qəsəbə sakini qohumumdur...

Bura həmin Zəngilan olmasa da, qəsəbəyə girəndə bir doğmalıq hiss etdim. Sanki hər qarşıma çıxan qəsəbə sakini qohumumdur. Qəsəbədə yaşayan həmyerlilərim illərinin zəhməti ilə arxada qalan 25 ildə qazanc yolları tapıb, özlərinə yeni həyat qurublar. Bir sözlə, qəsəbədə həyat qaynayır.

Burada yaradılan şəraitə tamaşa edə-edə qəsəbəni gəzib-dolaşıram. Diqqətimi kiçik bir tikilinin içərisində nərd oynayan iki ağsaqqal çəkir və yaxınlaşıb salamlaşıram. Sən demə, bura rayonun icra hakimiyyəti tərəfindən ağsaqqalların asudə vaxt keçirmələri üçün yaradılan məkandır. Bütün məhəllə ağsaqqalları yığışaraq nərd, domino oynayır, çay dəmləyib içirlər.

74 yaşlı Əfqan Davudov Zəngilandan çıxanda 49 yaşı varmış. İşğal günü bircə canını götürüb qaça bildiyi üçün çox şükür edir: "Yaxşı evim-eşiyim var idi. Özümə hər cür şərait qurmuşdum. Heyif, hər şeyimizi qoyub gəlməli olduq. Bircə, canımızı götürüb gəldik. O gün ümummilli lider Heydər Əliyevin tapşırığı ilə Araz çayının suyu azaldılmasaydı, çoxlu insan tələfatı ola bilərdi. Hökumətimizin dəstəyi sayəsində indi bizə burda yaxşı şərait yaradılıb, ancaq heç nə o yurdun yerini vermir. Çox istərdik, torpaqlarımız alınsın, bu yaşımızda gedib oranın havasını udaq. Elə orda ölməyi də arzulayıram".

### O gecə olmaz ki, Zəngilanı yuxumda görməyim

Kənardan söhbətə qoşulan Murtuza Abdullayev də 1954-cü ildə Zəngilanda anadan olub. Murtuza dayı işğal gününü belə xatırlayır: "Biz sağ qaldığımız üçün yerli özünümüdafiə dəstələrinə və ulu öndər Heydər Əliyevə minnətdarıq. Dörd övladım vardı. O gün evimizi atıb ancaq uşaqları və paltarlarımızı götürüb Araz çayına tərəf qaçdıq. Dedilər ki, qadın və uşaqları Arazın o tayına keçirin, kişilər isə döyüşə qayıdacaq. Qayıtdıq, amma düşmən çox böyük qüvvə ilə hücuma keçmişdi. Bacarmadıq... Azərbaycanın çox yerini gəzmişəm, amma Zəngilandakı gözəlliyi heç yerdə hiss edib, duymamışam. İndi hər gecə yatanda da o torpaqları görürəm. Elə gün olmur ki, oralar yuxuma girməsin". Bu sözlərdən sonra ağsaqqalın kövrəlməsi məni də ağladır...

Murtuza dayıya toxtaqlıq da verə bilmədən ayrılıram oradan...

### Üç gün Arazın qırağında ac-susuz qaldıq

Məktəbdə zəng vurulur və birinci növbədə oxuyan uşaqların evə gedən vaxtıdır. Evə getməyin sevincini yaşayan balaca məktəblilərin səs-küyü, övladını məktəbdən gətirən valideynlərin söhbətləşməsi maraqlı mənzərə yaradır.

Bəlli olur ki, 33 saylı tam orta məktəbdə dərs deyən müəllimlərin əksəriyyəti zəngilanlıdır. Zəng vurulur və ikinci növbə dərsə başlayır. Müəllimlər otağında bir neçə müəllimə ilə həmsöhbət oluram.

İlk həmsöhbətim Zəngilan rayonunun Mincivan kəndində dünyaya göz açan Ramilə Bayramovadır. İşğal zamanı Ramilə müəllimə 24 yaşında olub. Yaşadığı o dəhşətli günləri bizimlə bölüşdükcə göz yaşlarını saxlaya bilmir: "Oktyabrın 26-sı idi. Ermənilər dayanmadan atırdılar. Ailəli idim. 27-si səhər tezdən Mincivana atamgilə gəldim. Atam kənddə müəllim işləyirdi. Həmin gün də dərsə getmişdi. Elə evdə oturmuşduq ki, bayırdan səs-küy gəldi. Qonşular hay salmışdılar ki, kəndi tərk etməliyik. Qaçaqaç düşdü. Anam da bulaqdan su gətirməyə getmişdi. Onu gözləməli oldum. Bir övladım var idi, biri də bətnimdəydi. Soyuq havada evimizi tərk edib yola düşdük. Araz çayının iki qolunu çətinliklə keçə bildik. Suda islanan insanlar donurdular. Üç gün Arazın qırağında ac-susuz qaldıq. Həmin günlərdə bizimkilər Mincivana gedib-gəlirdilər. Ancaq oktyabrın 29-u kəndlə əlaqə tam kəsildi. Xoşbəxtlikdən sağ qaldım. Bura gələndə oğlum dünyaya gəldi, adını Araz qoydum".

### 25 ildir ağlamaqdan gözümdə su da qalmayıb

"Hər il payız fəsli gələndə mənim Zəngilan dərdim başlayır. Hər gün Zəngilanı yuxuda görürəm. Ağlamaqdan gözümün suyu da qalmayıb". 25 ildir bu ağrı-acı ilə yaşayan Elmira Həsənova fikirlərinə bu cümlələrlə başlayır.

Doğma kəndlərini ağlaya-ağlaya təsvir edir: "Zəngilanın Şayıflı kəndində doğulmuşam. O gözəlliyi kim unudar ki?! Kəndimiz çox gözəl idi, iki dağın arasında yerləşirdi. Həmişə üstü qızlar, qadınlarla qaynayan bulaqlarımız var idi. Bizim camaat 1992-ci il dekabrın 10-da kənddən çıxıb. Mən onda Bakıda oxuyurdum. Eşidəndə ki, ermənilər kəndimizi mühasirəyə alıb, tez bilet alaraq qatarla kəndimizə yollandım. Qonşumuzda Museyib dayı yaşayırdı. Ermənilər otluğa od vurub onu da ora atıb diri-diri yandırmışdılar. Neçə həmkəndlimiz şəhid olmuşdu... O qədər dəhşətli idi ki... O cür ağrılı-acılı günlər yaşamasına baxmayaraq hamı evində idi. Heç kim yurdu tərk etmək istəmirdi".

### Nənəm can verdi, dəfn edib başdaşına "Zəngilan" yazdıq

Müəllimlər arasında hər ilin oktyabr ayını çox ağır keçirənlərdən biri də Kifayət Şükürovadır. Zəngilan rayonu 2 nömrəli məktəbdə oxuyub. O vaxt 7-ci sinif şagirdi imiş.

Həmin gün yaşananları sanki indi baş veribmiş kimi xatırladığını deyən Kifayət müəllimə nənəsinin ölümünü ürək ağrısı ilə danışır: "Oktyabrın 29-na kimi rayonda qaldıq. Hətta ən axırıncı günə kimi məktəbə gedirdik. Oktyabr mənim üçün o qədər ağır aydır ki... Biz də hamı kimi Arazdan keçdik. 7 uşaq, atam, anam, bir də nənəm var idi. Nənəmin ayaqları tutmurdu deyə, atam onu kürəyində aparırdı. Araz çayını da belində keçirdi. Atama nə qədər dedi ki, məni qoy get, atam razı olmadı. İran tərəfə keçəndə neçə qapıya getdik, dedilər ki, biz gecə qonaq qəbul etmirik. Üç gün orda - bayırda qaldıq. Nənəm soyuqdan xəstələndi, can verirdi. İmişli tərəfdən sərhədi keçdik. Kürdəmir tərəfə keçəndə nənəm canını tapşırdı. Onu elə oradaca dəfn elədik. Başdaşına da "Zəngilan" yazdı atam. Məzarı Kür çayının kənarında idi. Kür çayı qalxanda məzar da itmişdi. Sonra bizimkilər gedib birtəhər tapdılar"...

### Əsgülüm dağının zirvəsinə qalxıb hayqırmaq istəyirəm

Zəngilan rayon Xumarlı kəndindən olan Pərvanə Fərəcovanın qardaşı İsaq Fərəcov Zəngilanda gedən döyüşlərdə şəhid olub. Üç uşaq atası imiş. İsaqın döyüş yolu çoxlarına bəllidir. Şuşada, Laçında qəhrəmancasına döyüşən İsaq əsl vətənpərvər igidlərimizdən biridir. Onun döyüş yolu haqqında kitab da nəşr olunub. Pərvanə müəllimə deyir ki, indi o günlərdən danışanda adamın gücü ancaq ağlamağa yetir...

Pərvanə müəllimənin qardaşı qızı Könül Quliyeva Zəngilanın el şairi, rəhmətlik Məhərrəm Mahinin "Zəngilanda olasan" şeirindən iki bənd söyləməklə söhbətimizə qoşulur:

Könül quşum qanadlanıb yerindən,
Deyir bu dəm Zəngilanda olasan.
Baxıb yurda, bir ah çəkib dərindən,
Ağlayasan, boşalasan, dolasan...

Görən kimi Ağ Oyuğun düzünü,
Yoxlayasan torpağının nəbzini.
Qucaqlayıb söykəyəsən üzünü,
Əcəl gəlsə, elə orda öləsən...

Sən demə, Könül Məhərrəm Mahinin gəlini imiş. Onun şeirlərini kitabdan deyil öz dilindən eşidərək yadda saxlayırmış. Şairin bir neçə şeirini söyləyən müəllimənin yeganə arzusu Zəngilanı yenidən görmək, bu şeirləri Əsgülüm dağının zirvəsində hayqıraraq səsləndirməkdir.

Könül müəllimə bu arzusunun gerçəkləşəcəyinə inanır. Çünki Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun aprel zəfərindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin yenidən bərpa edilməsi zəngilanlıların da ümid çırağını alovlandırıb. Hər bir zəngilanlı öz Prezidentinə, ordusuna güvənir və inanır ki, tezliklə arzular çin olacaq.

Beləcə, müəllimlərlə söhbətimizi bitirib ayrılırıq. Birinci mərtəbədə kiçik yaşlı şagirdlə qarşılaşıram. Adı Arazdır, zəngilanlıdır. Bu il ikinci sinfə gedir. Zəngilanı tanımasa da, harada yerləşdiyini bilməsə də, müəllimləri ona, eləcə də digər həmyaşıdlarına Zəngilanı tanıtdırmağa çalışırlar, şeirlər öyrədirlər. Bütün sinif otaqlarında Zəngilanın ərazisini, işğal tarixini əks etdirən lövhələr də var.

### Torpaq həsrəti, yurd nisgili

Məktəbdən çıxıb şəhərciyi yenidən dolaşmağa başlayıram, amma hələ də eşitdiklərimin təsiri altındayam. Zəngilan həsrəti ilə haqq dünyasına qovuşan nənəmin xatirələri gözümün önündə canlanır. Çünki nənəm də hər dəfə belə danışardı, ağlaya-ağlaya, kövrələ-kövrələ...

Deyirdi ki, evdən çıxanda tezliklə geri qayıdacaqlarını düşündükləri üçün şəkilləri də torpağa basdırıblar. Anam məni, nənəm isə bacım Nərmini kürəyinə şəlləyib kənddən çıxıblar. Onlar da Arazın soyuq suları ilə birtəhər İranla sərhəd əraziyə keçib bir neçə gün ac-susuz qalıblar. Ancaq bütün bu çəkdikləri acılar onlara o qədər əzab verməyib.

Əzab verən Arazın bu tayından durub yandırılan evlərinin tüstüsünün ərşə dirənməsini izləmək imiş... Bu, həqiqətən, bağır parçalayan mənzərə imiş. İnsanlar ən çox da günahsız Arazı qınayıb qarğıyırlarmış... Çünki ikinci dəfə idi ki, Araz ürəklərinə vətən dağı çəkirdi...

"Ürəyim elə orda qalıb, kaş ölmədən gedib oranı bircə dəfə görə biləydim" - deyirdi elə hey nənəm... Amma qismət olmadı, elə Zəngilan həsrəti ilə həyatla vidalaşdı...

### Zəngilanlılar hər zaman ulu öndər Heydər Əliyevə minnətdardırlar

Bu gün şəhərcikdə yaşayan məcburi köçkünlər üçün hər cür şərait yaradılıb. Qəsəbə haqqında dolğun məlumat almaq üçün isə şəhərcikdə yerləşən Zəngilan Rayon İcra Hakimiyyətinin binasına yol alıram.

Rayonun icra başçısı Ramiz Həsənov öncə işğal tarixindən söz açaraq bildirdi ki, XX əsrin sonu Azərbaycan xalqının tarixinə faciələrlə dolu bir dövr kimi yazılıb. Ölkədə mövcud ictimai-siyasi vəziyyət, daxili çəkişmələr, bir-birinə xəyanət edən silahlı birləşmələrin bəd əməlləri torpaqlarımızın itirilməsi ilə nəticələnib. Zəngilan da digər rayonlarımız kimi xəyanətin qurbanı olub.

Ancaq zəngilanlılar qəhrəmancasına döyüşərək erməni silahlı birləşmələrinə ciddi müqavimət göstəriblər. Əgər belə olmasaydı, iki aydan çox mühasirədə yaşayan rayon əhalisinin böyük əksəriyyəti qətlə yetirilərdi. Düşmənə sinə gərən Zəngilan ağır döyüşlərdə 245 şəhid verib, 12800 uşaq zərər çəkib, 395 uşaq yetim qalıb, 44 nəfərin aqibəti bəlli deyil, 127 nəfər isə müharibə əlilidir.

Zəngilanlılar hər zaman ulu öndər Heydər Əliyevə minnətdardırlar: "Əgər ümummilli lider İran hökuməti ilə danışıqlar aparıb Araz çayı üzərindəki bəndi bağlatdırmasaydı, yüzlərlə insan çayda tələf olardı və böyük faciə yaşanardı. Yenicə müstəqillik qazanmış Azərbaycanı xaosdan, vətəndaş müharibəsindən qurtaran dahi lider zəngilanlıların da xilaskarıdır".

### 970 ailənin məskunlaşdığı şəhərcik

Doğma yurd-yuvalarından didərgin düşmüş zəngilanlılar hazırda Bakıda və respublikamızın 43 rayonunda müvəqqəti məskunlaşıblar. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu təbəqədən olan insanlara xüsusi diqqət və qayğı göstərir. Bu şəhərcik də dövlət başçısının tapşırığı əsasında inşa olunub.

Şəhərcik 2013-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib. 5 il öncə aprelin 1-də dövlət başçısı qəsəbənin açılışı zamanı məcburi köçkünlərlə söhbətində buranın müvəqqəti yaşayış yeri olduğunu söyləyərək vurğulayıb ki, torpaqlarımız işğaldan azad olunandan sonra Azərbaycan dövləti bundan da gözəl binalar, evlər tikəcək. O cümlədən, Zəngilanda və işğala məruz qalan digər rayonlarda bundan da gözəl şərait yaradılacaq.

İcra başçısının sözlərinə görə, şəhərciyə Azərbaycan Dövlət Neft Akademiyasının tələbə şəhərciyində müvəqqəti məskunlaşmış 760 ailə (3420 məcburi köçkün) köçürülüb. 760 evdən 90-ı birotaqlı, 490-ı ikiotaqlı, 170-i üçotaqlı, 10-u dördotaqlıdır. Məcburi köçkünlərdən 460-ı Zəngilan, 66-sı Ağdam, 52-si Cəbrayıl, 40-ı Füzuli, 142-si isə Kəlbəcər, Laçın, Qubadlı, Şuşa, Xocavənd, Xocalı rayonlarındandır.

12 hektar sahəni əhatə edən məhəllədə rayon icra hakimiyyətinin binası, 13 ədəd 5 mərtəbəli bina, 580 şagird yerlik məktəb, 280 yerlik uşaq bağçası, klub-icma mərkəzi, tibb məntəqəsi tikilib.

Ötən il isə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəxsən nəzarət etdiyi "Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması" layihəsi çərçivəsində qəsəbədə daha 3 yeni bina inşa olunub. Oktyabrın 5-də Mehriban xanım Əliyeva şəhərcikdə yeni inşa olunan üç binada 210 ailəyə mənzillərin təqdim edilməsi mərasimində iştirak edib.

### Zəngilanlılar da Ali Baş Komandana inanırlar, güvənirlər

Ramiz Həsənovun sözlərinə görə, Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin yenidən qurulması və kəndin əhalisinin doğma yurda dönüşü zəngilanlıların da böyük sevincinə səbəb olub. Bu hadisə, bu zəfər doğma yurdunu itirən hər bir zəngilanlının dövlətinə, Ali Baş Komandanına inam hissini daha da gücləndirib. İndi bütün zəngilanlı məcburi köçkünlər inanırlar ki, tezliklə illərdir qəlblərdə alovlanan yurd həsrəti bitəcək və Cocuq Mərcanlıda olduğu kimi, Zəngilanda da yenidən həyat qaynayacaq.

Yenidən yandırılacaq sönmüş ocaqlar, toy-büsat bürüyəcək Zəngilanı...

*Şəhərciklə bağlı ətraflı məlumat aldıqdan sonra sağollaşıb ayrılıram. Yavaş-yavaş qaranlıq düşür, qəsəbədən uzaqlaşıram və sanki 25 il əvvəl tərk edib gəldiyim Zəngilanı ikinci dəfə yenə tək qoyub gəlmiş oluram...*

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

---

# İlk regional simpozium

Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi və Talassemiya Mərkəzinin birgə təşkilatçılığı ilə regionlarda "Talassemiyasız həyat naminə" şüarı altında layihələr reallaşdırılır. Layihə çərçivəsində əhalinin maarifləndirilməsi və müvafiq sahədə çalışan tibb heyətinin bilik və təcrübələrinin artırılması məqsədilə həkimlərin, QHT nümayəndələrinin, təhsil işçilərinin, talassemiyalı pasiyentlərin və onların valideynlərinin iştirakı ilə regional simpoziumlar keçirilir, eləcə də talassemiya daşıyıcılığını müəyyən etmək üçün vətəndaşların ödənişsiz tibbi müayinələri təşkil olunur.

AZƏRTAC xəbər verir ki, bu məqsədlə oktyabrın 27-də Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində "Talassemiyasız həyat naminə" 1-ci regional simpozium keçirilib.

Simpoziumda Talassemiya Mərkəzinin nümayəndələri müxtəlif məruzə və təqdimatlarla çıxış ediblər.

Talassemiya Mərkəzinin direktoru Valeh Hüseynov çıxış edərək, ölkəmizdə səhiyyə sahəsində əldə olunan nailiyyətlərdən danışıb. Qeyd edib ki, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində səhiyyə sahəsində uğurla aparılan islahatlar, tibb müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi, təchizat və kadr hazırlığı ilə bağlı görülən işlər yeni nailiyyətlərə yol açıb.

Bildirilib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan və 2009-cu ildən istifadəyə verilən Talassemiya Mərkəzində görülən işlər, talassemiyalı xəstələrə göstərilən tibbi xidmətin təkmilləşdirilməsi istiqamətində aparılan islahatlar, Mərkəzin maddi-texniki bazasının gücləndirilməsi sahəsindəki tədbirlər bu xəstəliyə düçar olanların müalicəsində və profilaktikasında mühüm rol oynamaqda, xəstələrə və onların ailələrinə mənəvi baxımdan böyük dəstək olmaqdadır.

Talassemiya Mərkəzi və Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin birgə layihələr həyata keçirdiyini deyən Valeh Hüseynov respublikanın müxtəlif regionlarında simpoziumların, maarifləndirici tədbirlərin, ödənişsiz tibbi müayinələrin təşkil ediləcəyini, müayinələrin nəticələrindən asılı olaraq müvafiq müalicələrin təyin olunacağını bildirib.

Mingəçevir və Yevlax şəhərlərində, Ağdaş, Göyçay, Ucar, Zərdab və Ağsu rayonlarında fəaliyyət göstərən tibb müəssisələrində çalışan 150-dən çox səhiyyə işçisinin də iştirak etdiyi simpozium daha sonra elmi sessiyalarda davam edib.

"Talassemiya: müasir yanaşma" mövzusundakı sessiyada talassemiyanın müalicə və diaqnostikası, qarşısının alınması yolları, bu sahədə Mərkəzin təcrübələri barədə məlumat verilib, müzakirələr aparılıb.

Talassemiya Mərkəzinin elmi işlər üzrə direktor müavini, dosent Ramin Bayramlının sədrliyi ilə keçən "Talassemiya: diaqnostika və monitorinq" adlı sessiyada xəstəliyin laborator və prenatal diaqnozu, infeksion və kardiak ağırlaşmalar, həmçinin psixososial problemlərə dair məruzələr ətrafında müzakirələr edilib.

Simpoziumda Talassemiya Mərkəzinin aparıcı hematoloqlarının "Talassemiya və irsi hemoqlobinopatiyalara dair statistik məlumatlar", "Talassemiya daşıyıcılığı: talassemiyasız həyat naminə nə etməliyik", "Talassemiya Mərkəzində sümük iliyi transplantasiyasına dair təcrübələr" və digər mövzularda məruzələri dinlənilib, suallar cavablandırılıb.

Eyni zamanda, talassemiyalı xəstələrin müalicə aldığı region xəstəxanalarına baxış keçirilib, yerli tibb işçiləri ilə təcrübə mübadiləsi aparılıb.

Simpozium çərçivəsində, həmçinin Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasında talassemiya daşıyıcılığını müəyyən etmək məqsədilə ödənişsiz tibbi müayinələr də təşkil olunub. Müayinələr Mingəçevir şəhəri və ətraf rayonlardan olan 300-dən çox sakini əhatə edib.

# Sözlə əməlin vəhdəti

## Bəşəriyyətin inkişafına xidmət edən qlobal təşəbbüslər

*Əvvəli 1-ci səh.*

Azərbaycan Prezidentinin forumdakı çıxışında da qeyd etdiyi kimi, əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşamışlar: “Bu siyasət bu gün də davam etdirilir. Azərbaycanda bu istiqamətdə dövlət siyasəti çox səmərəlidir və gözəl nəticələrə gətirib çıxarır. ...Bizim tarixi, dini abidələrimiz həm qədim tariximizi göstərir, eyni zamanda göstərir ki, Azərbaycan müxtəlif dinlərin nümayəndələri üçün doğma diyar, doğma məkan olmuşdur”.

Ötən on il ərzində Azərbaycanda “Bakı prosesi” çərçivəsində, həmçinin bu təşəbbüsün məqsədləri istiqamətində çoxsaylı beynəlxalq tədbirlər gerçəkləşdirilib. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın irəli sürdüyü və böyük uğurla reallaşdırılan layihələr bu istiqamətdə qarşıya qoyulmuş hədəflərin əldə olunmasına xüsusilə böyük töhfə verib. Ümumdünya mədəniyyətlərarası dialoq forumlarının BMT və onun strukturlarının mədəniyyətlərarası dialoqun qurulması və inkişafı, irqi ayrı-seçkiliyə və dözümsüzlüyə qarşı mübarizə sahəsində qlobal platforma statusu qazanması, 2016-cı ilin aprelində BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun məhz Bakıda keçirilməsi bu uğurlu prosesin və fəaliyyətin nəticəsi idi.

Birləşmiş Millətlər Təşkilatı Baş katibinin 2017-ci ilin sentyabrında BMT Baş Assambleyasının 72-ci sessiyasındakı “Dünyanın rifahı naminə sülh mədəniyyətinin, dinlərarası və mədəniyyətlərarası dialoqun, qarşılıqlı anlaşmanın və əməkdaşlığın təşviqi” adlı məruzəsində 2008-ci ildən etibarən müvəffəqiyyətlə reallaşdırılan “Bakı prosesi”ni xüsusi vurğulaması da qədim dövrlərdən bəri sivilizasiyalar arasında körpü rolunu oynamış Azərbaycanın mədəniyyətlərarası dialoqa hazırkı mərhələdə verdiyi töhfələrin beynəlxalq miqyasda etirafıdır.

### Bizim məqsədimiz

Azərbaycan Prezidenti çıxışında ölkəmizin gördüyü bütün bu işlərin məqsədini, məramını kifayət qədər dəqiq ifadə etdi: “...Bütün bunların bir məqsədi var - sivilizasiyalararası, dinlərarası dialoq dərinləşsin, güclənsin, dünyada risklər azalsın, ayrı-seçkilik, ksenofobiya hallarına düzgün qiymət verilsin və bu təhlükəli meyillərin qarşısı alınsın”. Bu siyasətə uyğun olaraq Azərbaycan tarixi İpək yolunun bərpası, “Bakı-Tbilisi-Ceyhan”, “Bakı-Tbilisi-Ərzurum”, “Bakı-Tbilisi-Qars”, “Cənub qaz dəhlizi” kimi qlobal enerji-kommunikasiya layihələri ilə Şərqlə Qərbi təkcə maddi mənada bir-birinə bağlamır. Dünyada sülh və sabitliyə təkcə bu layihələrin qlobal iqtisadi-siyasi səmərəsi ilə fayda vermir. Şərq mədəniyyəti ilə Avropa dəyərlərini tarixən özündə qovuşduran müasir Azərbaycan cəmiyyəti Şərqlə Qərbi mədəniyyət müstəvisində də dialoqa çəkir. Hər iki qütbün ən müsbət xüsusiyyətlərinin tərcümanı rolunda çıxır edir.

2009-cu ildə İslam Mədəniyyətinin Paytaxtı olan Bakıda 3 il sonra - 2012-ci ildə “Eurovision” Beynəlxalq Mahnı Müsabiqəsinin, 2015-ci ildə I Avropa Oyunlarının, 2017-ci ildə İslam Oyunlarının yüksək səviyyədə təşkili bunun bariz ifadəsidir. Bütün bunlara nail olmaq ilk baxışdan göründüyü qədər də asan deyil. Amma ölkə rəhbərliyinin ortaya qoyduğu siyasi iradə, nümayiş etdirdiyi qətiyyətli mövqe bəzən mümkünsüzü də mümkün edir. Bu, Azərbaycan dövlətinin tutduğu inkişaf yoludur. Ölkə rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü siyasətdir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasət, Azərbaycanın geosiyasi əhəmiyyəti, zəngin karbohidrogen ehtiyatları, müstəqil xarici siyasəti, çoxmədəniyyətliliyi özündə əks etdirməsi və ümumbəşəri dəyərlərə bağlılığı ölkəmizi yalnız humanitar və mədəniyyət məsələlərinin deyil, həmçinin regional siyasətin müəyyənləşdiyi mərkəzə çevirir.

Prezident İlham Əliyev Azərbaycanın bu istiqamətdə öz tarixi missiyasını bundan sonra da davam etdirəcəyini bəyan etdi: “Biz bu sahədə öz fəaliyyətimizi davam etdirəcəyik. Xüsusilə indiki şəraitdə ki, yenə də qeyd etmək istəyirəm, həm müsəlman aləmində, həm Avropada multikulturalizmlə, islam həmrəyliyi ilə bağlı gedən proseslər müəyyən mənada narahatlıq doğurur. Ona görə Bakı Beynəlxalq Humanitar Forumunun ənənəvi olaraq keçirilməsi və bu foruma dünya birliyi tərəfindən yüksək qiymət verilməsi və diqqət yetirilməsi göstərir ki, belə tədbirlərə dünyada çox böyük ehtiyac var”.

Azərbaycan Prezidenti hesab edir ki, bu gün ölkəmizdə mövcud olan multikulturalizm mühiti, Azərbaycanın bu sahədə qazandığı təqdirəlayiq təcrübə bir çox ölkələrə gözəl nümunə ola bilər. Çünki Azərbaycan multikulturalizmin bəhrəsini gündəlik ictimai həyatında görür. Bu gün yurdumuzda yaşanan sabitlik, vətəndaş həmrəyliyi, milli həmrəylik o cümlədən bu dəyərlərə əsaslanır.

### Azərbaycan örnəyi

2017-ci ilin ölkəmizdə “İslam həmrəyliyi ili” elan edildiyini forum iştirakçılarının nəzərinə çatdıran Azərbaycan Prezidenti hazırda ölkəmizdə islam həmrəyliyinin tam bərqərar olduğunu bildirdi. Bu gün Azərbaycan müsəlmanlarının vəhdət namazı qılmalarını buna nümunə göstərdi: “Hesab edirəm ki, Azərbaycan bu sahədə müsəlman aləmində çox önəmli rol oynayır. Eyni zamanda, biz müsəlman aləminin diqqətini də bu sahəyə cəlb etməyə çalışdıq. Çünki əfsuslar olsun ki, biz müsəlman aləmində həmrəyliklə bağlı istədiyimizə nail ola bilməmişik. Qarşıdurmalar, müharibələr, anlaşılmazlıq, toqquşmalar və digər təhlükəli meyillər ölkələr üçün böyük problemə, faciəyə çevrilir, milyonlarla insan həlak olur, evsiz-eşiksiz qalır, qaçqın, köçkün vəziyyətinə düşür. Əlbəttə, biz çalışmalıyıq ki, bu sahədə də öz təkliflərimizi verək, öz nümunəmizi göstərək ki, əgər islam həmrəyliyi və multikulturalizm anlayışları vəhdət təşkil edərsə və dövlət siyasəti düzgün aparılarsa, bu, xalq tərəfindən də qəbul edilərsə, onda ölkələrdə problem olmayacaq. Müasir Azərbaycan bunun əyani, bariz sübutudur”.

Bu cür qlobal forumlar Azərbaycanın özünün üzləşdiyi humanitar fəlakətin, ərazilərimizin 20 faizindən çoxunun Ermənistan silahlı birləşmələri tərəfindən işğalı nəticəsində yaşadığımız acıların, tarixi həqiqətlərimizin dünyaya göstərilməsi baxımından da çox mühümdür. Ölkə rəhbəri forumun açılış mərasimindəki çıxışında dünyanın bütün aparıcı beynəlxalq təşkilatlarının bu münaqişə ilə bağlı qərar və qətnamələrini, o cümlədən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini bir daha diqqətə çatdırdı. Ermənilərin ümumən bəşəriyyət əleyhinə törətdikləri Xocalı soyqırımından danışdı. Və bir daha bəyan etdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır: “Azərbaycan heç vaxt işğalla barışmayacaq, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bunu tarixi ədalət və beynəlxalq hüquq tələb edir”.

### Şərq sivilizasiyasına bağlılıq, Avropa dəyərlərinə sadiqlik

Azərbaycanda keçirilən qlobal tədbirlərin siyasi, mənəvi, tarixi əhəmiyyəti öz yerində, belə tədbirlər Azərbaycanı həm də bütün dünyaya tanıdır. Ölkəmizdəki sabitlik və inkişaf mühitini, sosial-iqtisadi yüksəlişi, abadlıq mənzərələrini, mədəni dəyərlərimizi bütün yer üzündə sərgiləyir. Ən əsası, dünya Azərbaycanın irəli sürdüyü humanitar təşəbbüslərin, bu cür beynəlxalq tədbirlərdə qarşıya qoyulan qlobal məqsədlərin hər biri üzrə ölkəmizdə mühüm nailiyyətlərin əldə edildiyinə şahid olur. Bu, VI Bakı Beynəlxalq Humanitar Forumunun mövzusuna, məqsəd və məramına da aiddir. Bu gün Azərbaycanda insanın inkişafı üçün zəruri olan bütün fundamental azadlıqlar qanunla qorunur. Azərbaycan əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir. Ölkəmizdə azad internet fəaliyyət göstərir. Ardıcıl siyasi islahatlar iqtisadi islahatlara da böyük təkan verir. Cəmiyyətdə ictimai-siyasi sabitliyin mövcud olması, Azərbaycanın etibarlı tərəfdaş imici ölkəmizə böyük həcmdə xarici sərmayələrin axınına şərait yaradır. Respublikamızda yoxsulluğun səviyyəsi son 15 il ərzində 49 faizdən 5,4 faizə düşüb. İşsizlik problemi aradan qaldırılıb. Ölkəmiz forumun əsas mövzularından olan təhsillə bağlı da son illər ciddi nailiyyətlər qazanıb. Milli təhsil sistemimizin maddi-texniki bazası möhkəmləndirilib. Son 15 il ərzində 3000-dən çox məktəb tikilib, yaxud yenidən qurulub. Cəmiyyətdə müəllim nüfuzu yüksəlib, təhsilə, savadlanmağa, biliyə maraq artıb.

Vətəndaşlarımıza səhiyyə xidmətlərinin təşkili, insanlar arasında sağlam həyat tərzinin təbliği, idmanın populyarlaşdırılması istiqamətində də çox böyük uğurlarımız var. Azərbaycan bu gün innovativ inkişaf proseslərinə kifayət qədər həssas münasibət göstərir. Ölkəmizdə yüksək texnologiyaların tətbiqi genişləndirilir. Artıq 3-cü peykini də orbitə buraxan ölkəmiz dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür. Bu gün bütün dünyada bir Azərbaycan brendi kimi tanınan və böyük rəğbət doğuran “ASAN xidmət” kimi nümunələr, yenilənən sosial infrastruktur ölkəmizdə insanın inkişafına xidmət edir.

Xəzər regionunun aparıcı ölkəsi olan Azərbaycan beynəlxalq əhəmiyyətli layihələrin əsas söz sahibi olmaqla yanaşı, Qərbin Mərkəzi Asiyaya körpüsüdür. Böyük maraqların kəsişdiyi bu məkanda çoxmədəniyyətliliyin təmin edilməsi, proqressiv qanunvericiliyin mövcudluğu, Şərq sivilizasiyasına bağlılığın qorunması və Avropa dəyərlərinə sadiqlik müstəqil siyasət yeridən Azərbaycanı regionda getdikcə daha da möhkəmləndirir. Bütün bunlar eyni zamanda ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafına, insanlarımızın sosiallaşmasına böyük töhfə verir.

Prezident İlham Əliyev Azərbaycanın qısa müddətdə əldə etdiyi bu uğurların formulunu bir müddət əvvəl xarici mətbuata - Rusiyanın TASS İnformasiya Agentliyinə verdiyi müsahibəsi zamanı belə şərh etmişdi: “Zənnimcə, qısa şəkildə şərh etsək, millətlərarası, dinlərarası həmrəyliyin bu cür yüksək səviyyəsinə necə nail olmağımız onunla bağlıdır ki, biz bu barədə yalnız danışmırıq, həm də bu istiqamətdə düşünürük və fəaliyyət göstəririk. Əgər dünyada bu cür yanaşma üstünlük təşkil etsə, bu zəmində problem olmayacaq”.

Bəli, Azərbaycanın uğur formulu budur: sözlə əməlin vəhdəti.

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***

# Kosmik dövlət qurulmasına töhfə verən azərbaycanlı

## O həm də Rusiyanın hərbi-sənaye kompleksində fövqəladə yenilikləri tətbiq edən unikal şəxslərdən biridir

***S-400 “Triumf” raketi ABŞ-ın eyni təyinatlı “Petriot” silahını taktika-texniki göstəricilərinə görə bir neçə dəfə üstələyir. Əgər Rusiya silahı beş dəqiqədən də tez döyüş vəziyyətinə gətirilə bilirsə, amerikalılara bunun üçün azı 30 dəqiqə lazımdır. Bu yaxınlarda ABŞ Dövlət Departamentinin təmsilçisi Noyert bəyan edib ki, ABŞ bu silahı alan ölkələrə qarşı sanksiyalar tətbiq edə bilər. Səbəbi də odur ki, bu silaha sahib olan istənilən dövlətin hava hücumundan müdafiə qüvvələri yenilməz olur. Belə ki, S-400 zenit-raket kompleksi nəinki müasir, hətta perspektiv hava hücumu silahlarının geniş çeşidlərinin məhv edilməsinə hesablanan silahdır. S-400 “Triumf” zenit-raket sistemi artıq Rusiya Federasiyasının Silahlı Qüvvələrinin istifadəsinə verilmişdir. “Triumf” müasir və perspektiv hava hücumu vasitələrinin - maneə yaradan təyyarələrin, radiolokasiya patrulu və tuşlaması təyyarələrinin, kəşfiyyatçı təyyarələrin, o cümlədən kəşfiyyat-zərbə komplekslərinin tərkibindəki aviasiya raket daşıyıcıları olan strateji təyyarələrin, taktiki, operativ-taktiki ballistik raketlərin, orta mənzilli ballistik raketlərin, habelə intensiv radiomüqavimət şəraitində digər hava hücumu vasitələrinin məhv edilməsi üçün nəzərdə tutulan unikal silahdır. Məhz bu amillərə görə Rusiyanın hərbi-sənaye kompleksi ən müasir silahları ilə öyünən ölkələrdəndir. Bu üstünlüklərin əldə edilməsində həmyerlimiz İqor Aşurbəylinin misilsiz xidmətləri olmuşdur.***

*Əvvəli 1-ci səh.*

Ona görə də buna inanmaq üçün Aşurbəylinin gördüyü işlərə və Rusiyanın hərbi-sənaye kompleksinə verdiyi töhfələrə qısaca da olsa nəzər yetirmək vacibdir. İqor Aşurbəyli Moskvaya üz tutanda M.Qorbaçov və onun erməni əsilli məsləhətçiləri artıq qüdrətli bir dövlətin süqutuna start vermişdilər. “Yenidənqurma” adı altında çoxlarının sezmədiyi ağır siyasi proseslər gedirdi. Böyük bir dövlətin dağılması üçün xarici və daxili qüvvələr ciddi işləyirdi. Dağıtma prosesini sürətləndirmək üçün Sovet İttifaqının hərbi-sənaye kompleksinin çökdürülməsinə nail olmaq lazım idi. O zaman Rusiyanın hərbi sənayesində zenit-raket kompleksinin iki növü var idi: S-300P mövqe üçün və S-300V mobil qoşunlar üçün. Sovet İttifaqını çökdürmək, onun hərbi qüdrətini zəiflətmək üçün bütün strateji obyektləri hava hücumundan qoruya bilən mövqe zenit komplekslərini sıfırlamaq - fəaliyyətini dayandırmaq lazım idi. Bu addım bütün ittifaqın müdafiə sistemlərinin əvvəlki əzəmətini itirməsi ilə nəticələnərdi. Zenit-raket komplekslərini sıfırlamaq üçün isə S-300P komplekslərini təkmilləşdirən və döyüş qabiliyyətini saxlayan qurumlar maliyyə mənbələrindən məhrum edilməli idi. “Almaz” Elmi İstehsalat Birliyi əsas hədəfə çevrildi. O vurulmalı, dağıdılmalıydı.

Moskvada Kremldən o qədər də uzaq olmayan və böyük sahəni əhatə edən “Almaz” Elmi İstehsalat Birliyi 1940-cı illərin sonunda Beriyanın fəal iştirakı ilə yaradılmışdı. Bu qurum məhz 1990-cı illərin əvvəlində az qalmışdı ki, bütün maliyyə mənbələrini itirib müflisləşsin. Amma eyni zamanda Kremldə və ola bilsin ki, hakimiyyət daxilində baş verənləri görən və ittifaqı dağılmaqdan xilas etməyə cəhd edən qüvvələr də mövcud idi. Ona görə də elə bir varlı adam lazım idi ki, ali vətəndaşlıq hisləri naminə “Almaz”a sahib çıxsın və yeri gələndə uf demədən sərvətindən keçə bilsin. Moskvada əli pula təzə toxunan və onun tamından başı gicəllənən yeni milyarderlərin arasında belə bir adamı tapmaq asan deyildi. Məhz belə bir məqamda, şayiələrə görə, ciddi kapitala malik olan Aşurbəylini yada salırlar. İldırım sürəti ilə müflisləşən elmi istehsalat birliyinin rəhbərliyi Aşurbəyli ilə Leninqrad Rayon Partiya Komitəsinin dəhlizlərində rastlaşır. Rusiya müdafiə sənayesi tarixinə həkk olunan fakt odur ki, bütün ölkə və müdafiə sənayesi üçün ən ağır vaxtda İqor Aşurbəyli sərvəti ilə risk edərək “Almaz”ı idarə edən rəhbərlərdən birinə çevrilir. Rusiya mətbuatı bu gün də xüsusi məxfiliklə qorunan təşkilata Aşurbəylinin gəlişinin sirlərini açmaqda çətinlik çəkir və Rusiya təhlükəsizlik orqanlarını ittiham edir ki, atası xarici ölkələrdən birində yaşayan, anası da Rusiya vətəndaşı olmayan belə bir adam necə olur ki, Rusiya kimi dövlətdə sirlərlə qorunan məxfi idarəyə rəhbər gəlir və hamı buna göz yumur? Axı bu mümkün olan iş deyildi! Amma heç kim də bilmir ki, məhz Aşurbəylilər nəsli zadəganlığı, xeyriyyəçiliyi ilə tarixən seçilirdi. Aşurbəyli dövlətin maraqları naminə sərvətini itirməkdən qorxan adam deyildi.

Beləliklə, Aşurbəyli menecer kimi bu təşkilatda fəaliyyətə başlayanda müəssisənin borcu 160 milyard rublu keçmişdi! Buna baxmayaraq, İqor qollarını çırmalayıb işə girişir. Aşurbəylinin təklifi ilə yeni hava hücumundan müdafiə sistemləri üzərində iş güclənir, elmi istehsalat birliyinin ərazisində logistika sistemi yaradılır, anbarlar icarəyə verilir, mağaza açılır, Avropada ən uzun piştaxtası olan gecə barı qurulur. Müflisləşən müəssisənin ətrafında pullar fırlanmağa başlayır. Aşurbəyli onu ittiham edən opponentlərinə izah edir ki, bütün işlər qanun çərçivəsində görülür. Bugünün özündə də “azərbaycanlı tacir”ə Rusiya müdafiə sisteminin ən müqəddəs məbədi “Almaz”da “çıxardığı oyunları” bağışlaya bilməyən və mətbuatda onu aramsız ittiham edənlər var. Aşurbəyli isə təmkinlə izah edir ki, o, “Almazı” özəlləşdirməmişdi, faktiki olaraq dövlət özü ondan imtina etmişdi. Məhz onun atdığı addımlar borcları qaytarmağa, kollektivin maaşlarını ödəməyə və hətta qurumu qaldırmağa imkan verdi. Ən vacibi isə o idi ki, ölkənin müdafiə sistemlərinin dağıdıldığı bir zamanda İ.Aşurbəyli “Almaz” müəssisəsinin düşünən beynini - ixtiraçılar bürosunu nəinki qorudu, hətta ortaya yeni məhsul da çıxardı. Hava hücumundan müdafiə qoşunları üçün bütün rəqiblərini şoka salan yeni S-400 “Triumf” sistemi hazırlandı və sınaqdan keçirildi.

Lakin bütün görülən işlərə baxmayaraq, Aşurbəyliyə qarşı Rusiya mətbuatında sərt çıxış edən, onu az qala xəyanətdə suçlayan ciddi qüvvələr də mövcuddur. Onun kölgəsini aramsız olaraq qılınclayan və böyük məhəbbətlə dəmir barmaqlıqlar arxasında çürüməsini dəlicəsinə gözləyənlər var. İnternet resurslarında Aşurbəylini az qala vətənə xəyanətdə ittiham edən yazıların sayı-hesabı yoxdur. Hələ bir başlıqlara nəzər yetirin: “Varidat necə yaradılır və ya İqor Aşurbəyli paradoksu - prokurorların diqqətinə”, “Rusiya DİN-in 4-cü idarəsi İqor Aşurbəylinin fırıldaqları işini araşdırmaqda davam edir”, “Xamovnik rayon məhkəməsi Aşurbəyliyə İqor Korotçenkonun vəkilinin xərclərini ödətdirdi”, “Aşurbəyli və onun “Almaz” EİB-in əmlakı ilə fırıldaqları haqqında”...

Bu yazılar haradasa 2014-cü ilədək Rusiya mətbuatında dərc edilib. Məntiqlə düşünəndə bu təqiblərin arxasında erməni diasporunun dəstəyinin olduğunu ehtimal etmək mümkündür. Lakin internet resurslarındakı araşdırmalarımız bizə bu yö-




nümdə ip ucu vermədi. Aşurbəyli Rusiyanın hərbi qüdrətini qorumaq adı altında üstünə yeriyən opponentlərinin ittihamları qarşısında geri çəkilmədi. Uzun illər onu həbsə atmağa çalışanların arzusu ürəyində qaldı. Rəqibləri Rusiya mətbuatında onu Qərbin agenti, xüsusi təyinatlı xəfiyyə, Mərkəzi Kəşfiyyat İdarəsinin ən hiyləgər kəşfiyyatçısı kimi “titullar”la damğalayır və küy salırdı ki, ondan yana Butırka türməsi də, Lefortovo siyasi həbsxanası da hönkür-hönkür ağlayır. Aşurbəyli nə Butırkaya aparıldı, nə də Lefortov siyasi həbsxanasının zirzəmisinə salındı. Onu heç Petrovka 38-də də dindirən olmadı. Hara dartmaq, hara atmaq istəsələr də, o, dəyirmanın gözündən ölü girib diri çıxdı. Aşurbəyliyə qarşı ən sərt ittihamlarla çıxış edən tanınmış hərbi ekspert, bir ovuc medalın və mükafatların sahibi İqor Korotçenkonun səyləri heç bir nəticə vermədi. Korotçenko illərlə Aşurbəyliyə qara yaxmaqdan, müxtəlif KİV-də onu ağlabatan və batmayan günahlarda ittiham etməkdən bircə an əl çəkmədi. Gurultulu ittihamların sədası Rusiya mətbuatından xarici KİV-ə də adlamışdı. Onun həbsə atılması, xüsusi rejimlə koloniyalara salınması tələbi qəzetlərin və internet resurslarının manşetlərinə çıxarılırdı.

Bəs Aşurbəylinin arxasında kim dayanmışdı, o hansı səviyyədə və kim tərəfindən müdafiə edilirdi? “Arqumentı i faktı” qəzeti bu yaxınlarda dərc etdiyi yazıda adının çəkilməsini istəməyən Rusiya müdafiə sənayesinin veteranlarından birinin məhdud dairədəki söhbətinə istinadən yazır ki, əgər Rusiya Federal Təhlükəsizlik Xidmətinin əlində Aşurbəylinin fəaliyyəti ilə



bağlı kiçicik bir fakt belə olsaydı, onu çoxdan qandallayıb içəri atardılar: “Aşurbəylini heç kim ideallaşdırmır, “Almaz”ın rəhbərliyi çirkli qüvvələrə də tabe olmağa hazır idi, təki elmi istehsalat müəssisəsini xilas etsin və S-400 layihəsini başa çatdırsın. Zaman belə qarışıq idi”. Qəzet onu da etiraf edir ki, Aşurbəylinin yerində yalnız öz qazancını güdən başqa birisi olsaydı, “Almaz” çoxdan müflis olmuşdu və elmi istehsalat birliyindən bu günə qara çöp də qalmazdı. Rusiyanın müdafiə sənayesində aqibəti acınacaqlı qurtaran müəssisələr kifayət qədərdir.

Yuxarıda qeyd etdiyimiz kimi, Aşurbəyli haqqında çıxan tənqidi məqalələrin sayı-hesabı yox idi. Müqəddiməsiz-filansız birbaşa yazırdılar ki, ölkənin ən nəhəng müdafiə müəssisəsinə ingilis və Amerika casusu və eyni zamanda Rusiyanın ən məxfi sirlərinin daşıyıcısı başçılıq edir.

Tənqidi çıxışların yaylım atəşindən Aşurbəylini qoruyan kim idi? Rusiya tarixində belə ciddi təqiblərə və mətbuatın aramsız hücumlarına məruz qalan şəxsin sağ qalmasının özü də çox maraqlıdır. Məntiqə görə, bu, mümkün deyildi, amma bu ilin yayında onun haqqında “Arqumentı i faktı” qəzetinin yazdığı geniş məqalədə sanki bütün ittihamlara cavab verilir. Bu yazını Aşurbəylinin müdafiəsinin təşkili kimi də anlamaq mümkündür. Məqalə ona işarədir ki, Rusiya bu şəxsin fəaliyyətini yüksək qiymətləndirir və onun ölkənin müdafiə sənayesinin intibahı üçün gördüyü işləri layiqincə dəyərləndirir.

Lakin müəmmalı qalan bir suala da tam cavab axtarmaq lazımdır. Necə oldu ki, Aşurbəyli Rusiya müdafiə sənayesinin ən ağır dönəmində ən məsul vəzifəyə təyin edildi və ona bütün məxfiliklərə qoyulan qadağalara rəğmən rus dövlətinin ana sirri etibar edildi? Onu aramsız tənqid edən rusiyalı opponentləri bu suala cavab tapmaqda çətinlik çəkirlər. Lakin Aşurbəylilər nəslinin ümumi tərcümeyihalı müəyyən məqamlara aydınlıq gətirə bilər.

Abbasqulu ağa Bakıxanov Aşurbəlilər nəslinin türk afşar tayfalarına aid olmasından yazır. Bakı Rusiya tərəfindən işğal edildikdən sonra Aşurbəylilər nəsli-nəcabəti olan zadəganlar kimi qeydə alınır. Bu nəsildən olan Hacı-Mehdiqulu bəy 1894-cü ildə Bakı şəhərinin zadəganlarının nümayəndələri ilə birlikdə Moskvaya II Nikolayın tacqoyma mərasiminə göndərilir. Rus imperatoruna bağışlanan hədiyyələrin içində Aşurbəylinin apardığı qiymətli daş-qaşlarla bəzədilən bahalı xəncər də olur. Hədiyyədən məmnun qalan imperator Hacı Mehdiqulu bəyi Müqəddəs Stanislav ordeni ilə mükafatlandırır. Bu nəslin başqa bir təmsilçisi Nabat xanım Qoca bəy qızı milyonlara sahib xeyriyyəçi idi, Şollar suyunun çəkilişində, xəstəxanaların, Təzəpir məscidinin tikintisində və maliyyələşdirilməsində iştirak etmişdir. Aşurbəyli nəslinin başqa bir nümayəndəsi Hacı İbrahim Əjdər bəy də yaxşı xeyriyyəçi varlılardan olub. Az-çox varidatı olan Aşurbəylilər xeyriyyəçiliyi daim yaxşı əməllərin ən ucası sayıblar. Moskvada 1990-cı illərdə yeni milyarderlər sərvətlərini dövlətin qorunmasına xərcləməkdə xəsislik edəndə İqor Aşurbəyli düşünmədən qabağa düşür. Onun vəzifəyə necə təyin olunması üzərində baş sındıran opponentlərinin bu sadə faktlardan xəbərləri yoxdur. Minillik tarixi olan dövlət üçün imperatorun tacqoyma mərasimində ləyaqətlə iştirak edən azərbaycanlının törəmələri də yad deyil. Lazım gələndə o nəslin təmsilçilərinə ən məxfi sahə də etibar edilə bilər.

İ.Aşurbəyli 10 il “Almaz-Antey” baş konstruktor bürosu sisteminə rəhbərlik etdi. Rusiyanı hava hücumundan qalxan kimi qoruyan S-300 və S-400 raketdən müdafiə sistemlərinin istehsalında vacib rol oynadı. O, Rusiya Hava Kosmik Müdafiə üzrə Ekspert Şurasının sədridir. Onun rəhbərliyi altında istehsal olunan “S-300” raketləri Rusiyadan başqa 18 ölkənin, o cümlədən Azərbaycanın Hava Hücumundan Müdafiə Qüvvələrinin döyüş arsenalına daxildir. İqor Aşurbəyli texnika elmləri doktoru, A.Proxorov adına Mühəndis Elmləri Akademiyasının və Hərbi Elmlər Akademiyasının həqiqi üzvüdür, yüzdən artıq elmi əsərin, bir ensiklopediyanın və iki monoqrafiyanın müəllifidir. Onun elmi nailiyyətləri Rusiya Federasiyasında müxtəlif orden, medal və fəxri titullarla mükafatlandırılmışdır.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***





# “İdeyadan Biznesə” startap turlarının respublika üzrə qalibləri seçilib





Bu ilin aprel ayından etibarən icrasına başlanılan “İdeyadan Biznesə” layihəsi çərçivəsində keçirilən startap turlarının finalı olub.

AZƏRTAC xəbər verir ki, “İnnovasiya həftəsi” çərçivəsində Heydər Əliyev Mərkəzində keçirilən final mərasimində dövlət rəsmiləri, ali təhsil müəssisələrinin rəhbərləri, startapçılar və tələbələr iştirak edib. Qonaqlar ilk öncə Heydər Əliyev Mərkəzinin foyesində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən yaradılan innovativ məhsul və xidmətlərin nümayiş olunduğu “İnnoEkspo” sərgisinə ekskursiya edib, “Azərmarka” MMC-yə məxsus stenddə sərgilənən marka və suvenirlərlə tanış olublar.

Daha sonra startap turunun final mərhələsi başlayıb. İlk öncə 8 regionu əhatə edən startap marafonuna dair videoçarx nümayiş olunub.

Qonaqları salamlayan tədbirin aparıcısı, xalq artisti Murad Dadaşov layihə iştirakçılarına uğurlar arzulayıb.

Layihənin reallaşdırılmasına dəstək olan Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinə, Azərbaycan Gənclər Fonduna, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına, “Microsoft” və “Azercell” şirkətlərinə, eyni zamanda ali təhsil müəssisələrinin rəhbərlərinə yaratdıqları şərait üçün təşəkkürünü bildirən nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə qeyd edib: “Yeddi ay ərzində respublikanın ayrı-ayrı şəhər və rayonlarında keçirilən startap turuna 2 mindən çox iştirakçı qatılıb. Ümumilikdə seçilən 75 komandadan 15-i respublika finalında iştirak hüququ qazanıb”.

“Ölkəmizin 16 ali, 3 ümumtəhsil müəssisəsində “İdeyadan Biznesə” layihəsi çərçivəsində startap turları keçirilib. Biz çox şadıq ki, gənclərimiz, tələbələrimiz innovativ inkişafa böyük maraq göstərirlər. Çünki müasir dövrdə innovativ düşüncəli gənclərə böyük ehtiyac var. Məhz bu səbəbdən ölkəmizdə gənclərin intellektual səviyyəsinin artırılması, onların elmə, təhsilə, innovativ düşüncəyə, texnologiyalara və rəqabətədavamlı biliklərə yiyələnməsinə xüsusi önəm verilir.

Bugünkü tədbir onu göstərir ki, gənclərimiz informasiya texnologiyalarından, internetdən yalnız əyləncə, bilik almaq üçün yox, həmçinin biznes ideyalarının reallaşdırılması üçün də istifadə edirlər. Bildiyiniz kimi, nazirliyin fəaliyyət istiqamətlərindən biri də innovativ inkişafa dəstək verməkdir. Nazirlik İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu və Yüksək Texnologiyalar Parkı vasitəsilə startaplara biznes ideyalarının reallaşdırılmasına dəstək verir. Startap hərəkatını genişləndirmək, gənclər arasında innovativ düşünmə tərzini inkişaf etdirmək, gəncləri aktiv şəkildə bu prosesə cəlb etmək üçün müxtəlif layihələr, təlimlər, müsabiqələr keçiririk”, - deyə nazir vurğulayıb.

Ramin Quluzadə layihə çərçivəsində nazirliyin koordinatorluğunda informasiya və kommunikasiya texnologiyaları sahəsində “İnvestorlar klubu” yaradıldığını da xatırladıb. O bildirib ki, “İnvestorlar klubu” informasiya və kommunikasiya texnologiyaları sahəsində investisiya mühitinin yaxşılaşdırılması və özəl sərmayələrin düzgün istiqamətləndirilməsi, yeni texnologiyaların yerli iqtisadiyyata inteqrasiyası, elmi tədqiqat işlərinin, eləcə də innovasiyaların tətbiqinin genişləndirilməsi istiqamətində fəaliyyət göstərəcək.

“Bu klub həmçinin startapçıların ideyalarının reallaşdırılmasına dəstək ola bilər. Biz startap hərəkatının daha da genişləndirilməsi, ölkəmizdə innovasiya ekosisteminin formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində fəaliyyətimizi bundan sonra da davam etdirəcəyik”, - deyə nazir əlavə edib.

Daha sonra R.Quluzadə finalda yarışacaq komandalara uğurlar arzulayıb.

Tədbirin davamında 15 finalçı müəyyən olunmuş ardıcıllıq üzrə layihələrini 3 dəqiqə ərzində münsiflər heyəti qarşısında təqdim etdikdən sonra onlara ünvanlanmış sualları cavablandırıblar.

Təqdimatlardan sonra bütün komandalar startap turunda fəal iştiraklarına görə sertifikatlarla təltif edilib.

Münsiflər heyətinin qərarı ilə startap turunun respublika üzrə qalibləri “Gonex” (I yer), “Smart Reaktor” (II yer) və “Noahland” (III yer) komandaları olub.

“Gonex” - Bakı Mühəndislik Universitetinin tələbələrinin layihəsidir. İnformasiya Texnologiyaları üzrə onlayn və real layihələr üzərində çalışaraq təcrübə əldə edə bilmək üçün unikal platformadır.

Sumqayıt şəhərini təmsil edən “Smart Reaktor” layihəsi isə tullantılardan alternativ enerji əldə edilməsinə yönəlib.

Naxçıvanı təmsil edən “Noahland” layihəsi ekstremal idman növlərinin və düşərgələrin bir portalda cəmləşdirilməsinə xidmət edir.

Birinci yerin qalibi 10 min manat, ikinci yerin qalibi 5 min, üçüncü yerin qalibi isə 2500 manat məbləğində mükafatlandırılıb.

“Azercell”, “Microsof Azərbaycan” şirkətləri və “Kapital Bank” startapçılar arasından ən çox bəyəndikləri layihələrə hədiyyələr təqdim ediblər.

Belə ki, “Azercell” şirkəti “Mayak”, “Microsoft” şirkəti “Xilaskar Qolbaq”, “Kapital Bank” “Şəki tur” və “Guide to” layihələrini seçərək mükafatlandırıb.

Milli finalda qalib gələn layihə sahibləri dekabrın 4-7-də təşkil ediləcək XXIV “Bakutel” Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgi-konfransı çərçivəsində layihələrini təqdim etmək imkanı da əldə ediblər.

“İdeyadan Biznesə” layihəsi çərçivəsində startap turlarının növbəti illərdə də davam etdirilməsi nəzərdə tutulub.

# Yeni dünya, yeni insan formalaşdıraq



Oktyabrın 25-də Heydər Əliyev Mərkəzində VI Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimi olub. “Yeni dünya və yeni insan formalaşdıraq: kreativlik və insan inkişafı” mövzusunda keçirilən foruma 90-dan çox ölkə və 24 beynəlxalq təşkilatdan 580-dən çox nümayəndə qatılıb. Forum plenar və işçi sessiyalarla işini davam etdirib.

“Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018” mədəniyyət ili çərçivəsində “Ekstremizm və islamafobiyaya qarşı mübarizə mexanizmi kimi vasitəçilik və dialoq mədəniyyəti” üzrə milli seminar M.F.Axundov adına Milli Kitabxanada təşkil olunub.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrinin iştirakçılara ünvanladığı məktub oxunub.

Paneldə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun aparat rəhbəri, professor İsaxan Vəliyev “Yeni insanın formalaşmasında dini ekstremizmlə mübarizənin rolu: hüquqi və fəlsəfi aspektləri” mövzusunda məruzə ilə çıxış edib. Ekstremizmə qarşı mübarizədə dövlət siyasətinin mühüm istiqamətlərindən söz açan natiq cəmiyyətin gələcək inkişafı naminə beynəlxalq standartlara cavab verən yeni düşüncə tərzinin formalaşmasının vacib elementləri barədə fikirlər səsləndirib.

Tədbirdə Milli Məclisin deputatı, tarix elmləri doktoru Pərvin Kərimzadə, Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin direktoru Asif Usubəliyev və digərləri çıxış ediblər.

***“Azərbaycan”***

# Marketinq sahəsində trenddə olan ən aktual mövzular müzakirə edilir



“Azercell Telekom” MMC marketinq sahəsində trenddə olan ən aktual mövzuları müzakirə etmək üçün müxtəlif sahə ekspertləri, influenserlər (cəmiyyətdə təsir qabiliyyətinə malik şəxslər), sahə oyunçuları, brend və biznes sahiblərini bir araya gətirən “Global Influencer Day” tədbirinə dəstək verir. “Azercell” Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçiriləcək “İnnovasiya həftəsi” çərçivəsində baş tutacaq “Global Influencer Day”in GSM sponsoru kimi iştirak edir. 26 oktyabrda keçirilən mətbuat konfransında sual-cavab sessiyası və fikir mübadiləsi aparılıb. “Azercell Telekom” MMC-nin Korporativ Ünsiyyət şöbəsinin rəhbəri Nigar Şıxlinskaya öz çıxışında bu tədbirlərin insan həyatının asanlaşdırılmasına, onun keyfiyyətinin artırılmasına doğru atılan addımlardan olduğunu bildirib, süni intellekt, əşyaların interneti, big data, İKT-də sahibkarlıq və s. bu kimi anlayışları cəmiyyət üçün mümkün və daha yaxın edən insanlara və təşkilatlara uğurlar arzu edib.

Şirkət və brend sahiblərinin öz məhsullarını təqdim etməsi üçün əlverişli platforma hesab edilən tədbir “Keepface Influencer” Marketinq Platformasının rəsmi dəstəyi ilə “FA International Trade Events” şirkəti tərəfindən oktyabrın 27-28-də Bakıda keçiriləcək.

Ölkəmizdə ikinci dəfə təşkil olunacaq tədbirin məqsədi brendlərlə influenserləri bir araya gətirməkdir. “Microsoft”, “Google” və “Instagram” kimi nüfuzlu şirkətlərin nümayəndələrinin öz sahələrində mütəxəssis olan spikerlərin və uğurlu təşəbbüskarların iştirak edəcəyi tədbirdə rəqəmsal marketinqin yeni trendləri, sosial şəbəkə təsiri və “influencer marketing” kimi mövzular müzakirə olunacaq, təqdimatlar nümayiş etdiriləcək. Hamının səbirsizlik və maraqla gözlədiyi əsas çıxışçı süni intellekt sahibi, robot Sofia da tədbirdə çıxış edəcək. Tədbirin sonunda influenserlərin mükafatlandırma mərasimi olacaq. Mərasimdə münsiflər heyətinin seçdikləri influenserlər təşkilatçılar tərəfindən mükafatlandırılacaq.

***“Azərbaycan”***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

### Kubanda daşqın nəticəsində 60 nəfər zərər çəkib



Rusiyanın Krasnodar diyarında daşqın və torpaq sürüşməsi nəticəsində 60 nəfər zərər çəkmişdir. 6 nəfər həlak olmuş, 2 nəfər itkin düşmüşdür. Bu barədə “RİA Novosti” agentliyi xəbər verir.

Məlumata görə, yaralıların 51-i ambulator tibbi yardım almış, qalanları xəstəxanaya yerləşdirilmişdir.

Xatırladaq ki, bu həftə Tuapse və Apşeron rayonlarına, habelə Soçiyə düşmüş rekord sayda yağıntılar üzündən daşqın və sel gəlmişdir. Bir çox yollar bağlanmış, avtomobil körpüləri və dəmir yolları sıradan çıxmışdır.

Kubanda fövqəladə vəziyyət rejimi elan olunmuş və əhali qismən köçürülmüşdür.

### ABŞ-da müxtəlif ünvanlara bomba göndərən şəxs bəlli oldu



ABŞ Prezidenti Donald Tramp müxtəlif ünvanlara bomba göndərməkdə şübhəli bilinən şəxsin polis tərəfindən tutulduğunu təsdiq etmişdir. O, Twitterdə Federal Təhqiqatlat Bürosuna, Ədliyyə Nazirliyinə və Nyu York polisinə “çox gözəl işə görə” minnətdarlıq etmişdir. Siyasətçi vəd etmişdir ki, partlayıcı qurğuların göndərilməsində əli olanların hamısı qanun qarşısında cavab verəcək. “Biz ABŞ-da siyasi zorakılığın kök atmasına imkan verməməliyik” deyə Tramp vurğulamışdır.

Bu arada “NBC News” telekanalı həbs olunmuş amerikalının şəxsiyyətini açıqlamışdır. Bu, 56 yaşlı Sezar Seyokdur (kiçik). Onu barmaq izləri və DNT analizi köməyi ilə tapmaq mümkün olmuşdur. Respublikaçılar Partiyasının üzvü olan Seyok dəfələrlə məhkum olunmuşdur.

Xatırladaq ki, son günlər Prezident Trampın tənqidçilərinə və siyasətçi demokratlara naməlum şəxslər tərəfindən şübhəli bağlamalar göndərilmişdir. Bağlamalar eks-prezidentlər Bill Klinton və Barak Obama, sabiq vitse-prezident Co Bayden, Hollivud aktyoru Robert de Niro, milyarder Corc Soros və digərlərinə ünvanlanmışdır. Klinton və Obamanın bağlamalarında əldəqayırma bomba aşkar edilmişdir.

Sezar Seyoku 58 ilədək həbs cəzası gözləyir.

### Pentaqon Havayda RƏM sistemini sınaqdan keçirdi



Pentaqon Havay adaları rayonunda raket əleyhinə müdafiə (RƏM) sistemini uğurla sınaqdan keçirmişdir. Bu barədə ABŞ Raket Əleyhinə Müdafiə Agentliyi məlumat vermişdir.

Ortamənzilli ballistik raket-hədəf Kauai adasındakı Sakit okean poliqonundan buraxılmışdır. “İcis” RƏM sistemi ilə təchiz olunmuş “Con Finn” gəmisi raketin uçuşunu izləmiş və hədəfi aşkarladıqdan sonra SM-3 Block-IIA əks-raketi ilə onu vurmuşdur.

SM-3 Block IIA Amerikanın RƏM sisteminin ən yeni əks-raketidir və döyüş başlıqlarını yalançı hədəflərdən fərqləndirməyə qadirdir.

### “Exit-poll”: İrlandiya Prezidenti yenidən dövlət başçısı seçiləcək



İrlandiyada keçirilmiş prezident seçkilərində Maykl Higgins böyük üstünlüklə qalib gəlir və ikinci müddətə dövlət başçısı seçilməyə çox yaxındır. RTE telekanalının 138 seçki məntəqəsində keçirdiyi “exit-poll”un məlumatları buna dəlalət edir.

Srağagün başa çatmış səsvermədə Higginslə yanaşı, daha beş namizəd - Avropa Parlamentinin müxalifətçi “Şinn feyn” partiyasından deputatı Liad Ni Riada, müstəqil namizədlər kimi çıxış edən sahibkarlar Piter Keysi, Gevin Daffi və Şon Qallaher, habelə senator və ictimai xadim Coan Friman iştirak etmişdir.

“Exit-poll”un nəticələrinə əsasən Higgins 58,1 faiz səs toplamışdır. İkinci yerdə 20,7 faiz səslə Piter Keysi qərarlaşmışdır. Üçüncü yeri isə Liad Ni Riada (7,4 faiz) tutur.

### Türkiyədə 12 terrorçu zərərsizləşdirildi



Türkiyə Silahlı Qüvvələrinin son bir həftə ərzində ölkə daxilində və xaricdə keçirdiyi əməliyyatlar nəticəsində 12 terrorçu zərərsizləşdirilmiş, xeyli sayda döyüş sursatı müsadirə edilmişdir. Bu barədə “Anadolu” agentliyi xəbər verir.

Müdafiə Nazirliyinin məlumatına əsasən, oktyabrın 18-dən 26-dək ölkənin silahlı qüvvələri Siirt, Diyarbəkir, Ağrı, Mardin, Şırnak, Hakkari və PKK/KCK terrorçu təşkilatının bazalarının yerləşdiyi Şimali İraqda əməliyyatları davam etdirmişdir.

Təhlükəsizlik qüvvələri kustar üsulla hazırlanmış 8 qurğunu zərərsizləşdirmiş, terrorçuların 7 atəş mövqeyini, sığınacaqlarını və anbarlarını məhv etmişdir.

Əməliyyatlarda 2 hərbi qulluqçu şəhid olmuş, 6-sı yaralanmışdır.

Məlumata görə, bu il yanvarın 20-də “Zeytun budağı” əməliyyatı başlayandan bəri zərərsizləşdirilmiş terrorçuların sayı 4585 nəfərə çatmışdır.

Bu arada Suriyanın Afrin şəhərində minalardan təmizləmə işləri davam edir. İndiyədək 299 mina və kustar üsulla istehsal olunmuş 1616 partlayıcı qurğu məhv edilmişdir.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Baş Qərvənd, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qobu Dilağarda, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# “Realliq.info”nun baş redaktoru İkram Rəhimov saxlanıldı

Azərbaycan Respublikasının vətəndaşı Rəhimov İkram Rafiq oğlunun tabliyində olan şəxslərlə birlikdə “Realliq.info” və digər “reket” informasiya saytları yaradıb, həmin internet qəzetlərin jurnalistləri adı ilə ayrı-ayrı vətəndaşların barəsində rüsvayedici və böhtan xarakterli məlumatları mətbu orqanlarda müntəzəm yayıb dayandırılması müqabilində pul tələb etməsi və alması, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplaması barədə daxil olmuş çoxsaylı şikayətlər Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) araşdırılıb.

DTX-nin İctimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, məhkəmə qərarı əsasında aparılmış əməliyyat tədbirləri ilə İkram Rəhimovun əlaqədə olduğu şəxslərlə birgə törətdiyi həmin silsilə cinayət əməlləri müfəssəl qeydə alınıb.

İkram Rəhimov 2018-ci il oktyabrın 26-da Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 182.2.1-ci və 182.2.2-ci maddələri üzrə (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrarən hədə-qorxu ilə tələb etmə) cinayət əməllərində şübhəli şəxs kimi saxlanılaraq, cinayət məsuliyyətinə cəlb edilib.

Hazırda istintaq araşdırmaları davam edir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## Azercell abunəçilərinin nəzərinə

“Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 30.10.2018-ci il tarixində gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8408
Sifariş 3126

